Xalqın qəzeti!

# Xalq qəzeti

№ 192 (30308) 7 sentyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Ermənistanla münasibətlərin tənzimlənməsində də biz sülh müqaviləsinin imzalanmasına nail olsaq, bu, ümumiyyətlə, Cənubi Qafqazda vəziyyəti sağlamlaşdıracaq və Cənubi Qafqazı yüksək risk zonasından çıxarmış olacaq.**

# Azərbaycan–Çin: “Ortaq yaşıl gələcək”



**Azərbaycanda həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir. Bu baxımdan, ölkəmizin potensialı olduqca yüksəkdir.**

Son tədqiqatlar Azərbaycanın 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialını təsdiqləyib. Bunun 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür.

Hazırda ölkəmizin ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizdə “yaşıl enerji” istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Ötən müddətdə bütün dünyada, o cümlədən Avropada özünü etibarlı enerji tərəfdaşı kimi təqdim etməyi bacaran Azərbaycan artıq “yaşıl” keçid platformasının da əsas iştirakçılarından birinə çevrilib. Eyni zamanda, ölkəmizin alternativ və bərpaolunan enerji sahəsində zəngin potensialı, eləcə də mövcud əlverişli investisiya mühiti xarici şirkətlərin diqqətini getdikcə daha çox cəlb edir.

Təsadüfi deyil ki, hazırda bir sıra ölkələrin tanınmış şirkətləri tərəfindən Azərbaycanda bərpaolunan enerji sahəsində mühüm layihələr icra olunur. Bundan əlavə, ölkəmiz əcnəbi şirkətlərlə 10 qiqavat elektrik enerjisinin hasil edilməsi üzrə anlaşma memorandumları və sazişlər imzalayıb. Göründüyü kimi, Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi üçün artıq güclü beynəlxalq dəstək qazanıb.

*(ardı 7-ci səhifədə)*

# ABŞ Bakı–Xankəndi dialoqunu dəstəkləyir

**Sentyabrın 1-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam–Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yol ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Azərbaycan Prezidenti qeyd edib ki, Ağdam–Xankəndi yolundan istifadədən bu formada imtina etmək siyasi manipulyasiyadır və həmin ərazidə, guya, humanitar, yaxud qida böhranının yaşandığını iddia etmək üçün məqsədyönlü yalandır. Ağdam–Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın–Xankəndi yolu açıla bilər. Prezident İlham Əliyev vurğulayıb ki, dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən Azərbaycanın “Laçın” sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi Azərbaycanın daxili işlərinə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Azərbaycan Prezidenti Ermənistanın bu kimi siyasətinin sülh müqaviləsi üzrə danışıqlara ciddi zərər vurduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırıldığını, lakin qanunsuz separatist rejimin bundan imtina etdiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət edilməsinə baxmayaraq, onların bundan imtina etdiklərini xatırladıb.

ABŞ Dövlət katibi Antoni Blinken sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb.

**Prezidentin Mətbuat Xidməti**

# Hikmət Hacıyev: Ağdam–Xankəndi yolunun logistik imkanları daha böyükdür

**Regionda sülhə və təhlükəsizliyə töhfə vermək istəyən hər kəs Ermənistan – Azərbaycan sülh danışıqlarına ciddi dəstək verməlidir. Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Səudiyyə Ərəbistanının “Arabnews” qəzetinə müsahibəsində bildirib.**




Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin, guya, humanitar fəlakətlə üzləşməsi barədə iddiaların əsassız olduğunun vurğulayan Prezidentin köməkçisi deyib: “Bunlar Azərbaycana qarşı əsassız iddialardır. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinləri üçün hər hansı məhdudiyyət və blokada yoxdur. Azərbaycan bir neçə yolun olmasını təklif edib. Mühüm yollardan biri də Ağdam–Xankəndi yoludur. Bu, daha səmərəlidir və Qarabağ regionu ilə əlaqə saxlamaq üçün daha böyük logistik imkanlara malikdir, çünki Azərbaycan onu tamamilə yenidən qurub. Hazırda Laçın–Xankəndi yolu işlək vəziyyətdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti yükləri bu yolla aparır”.

*(ardı 6-cı səhifədə)*

# Ermənistan–Rusiya münasibətləri: Uçurum getdikcə dərinləşir



Səhifə ⇨ 3

# Özü yıxılan ağlamaz

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Ermənistan baş naziri Nikol Paşinyanın dediklərinə münasibəti sərlövhədəki atalar sözünü yada salır. Qeyd edək ki, Nikol İtaliyanın “La Repubblica” nəşrinə müsahibəsində Moskvanın Cənubi Qafqazda rolunu kiçiltməyə çalışmış, onun Azərbaycanın hərəkətlərinə qarşı, guya, seyirçi mövqeyində olduğunu bildirmiş, habelə Kremlin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müstəvisində İrəvana dəstəyinin olmadığını vurğulamış, ən əsası isə qurumun ümumən lazımsızlığı və faydasızlığına dair görüntü yaratmışdır. Əlbəttə, Paşinyan başqa mətləblərə də toxunmuşdu ki, söhbətimiz əsnasında onları da diqqətə çatdıracağıq.**



İstər Zaxarovanın, istərsə də Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun N.Paşinyanın bildirdiklərinə münasibəti vurğuladığımız məqamlara cavab mahiyyəti daşıdı. Etiraf edək ki, hər iki cavab, kifayət qədər, tutarlı alındı. Bu baxımdan, D.Peskovun söylədiklərində bir məqam da diqqət çəkdi. Kremlin sözçüsü bildirdi ki, Rusiyada Ermənistanın özündəkindən çox erməni yaşayır.

*(ardı 4-cü səhifədə)*

## Güclü ordu – qüdrətli Türkiyə



Səhifə ⇨ 11

## İrəvan eyni vaxtda bir neçə stulda əyləşmək siyasətini davam etdirir



Səhifə ⇨ 6

## Zəngəzur dəhlizi ayırıcı yox, birləşdirici layihədir



Səhifə ⇨ 4

# Azərbaycan düyünü niyə kənardan gətirir?

**Son vaxtlar dünya mediasında ən çox diqqətçəkən məsələlərdən biri düyü ixracının məhdudlaşdırılması ilə bağlı olub. Əvvəlcə Hindistan, daha sonra isə Birləşmiş Ərəb Əmirlikləri və Rusiya bu məhsulun ixracını dayandırmağı qərara alıb.**



Bu vəziyyəti ekspertlərin fikrincə, düyü istehsalçısı olan Tayland və digər ölkələrdə havaların quraq keçməsi, daşqınlar, musson yağışları şərtləndirib. Tayland Düyü İxracatçıları Assosiasiyasının məlumatına görə, bu ölkənin ağ düyüsünün qiyməti 5 faiz artaraq 1 ton üçün 648 dollara çatıb. Bu da 2008-ci ilin oktyabrından indiyədək ən yüksək göstərici kimi qeydə alınıb. Beləliklə, son bir ildə bu məhsul üzrə qiymət artımı, təqribən, 50 faiz yüksəlib.

*(ardı 7-ci səhifədə)*

# Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 1-dən rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı aşağıdakı qərarlardan birinin qəbul edilməsi üçün həmin vətəndaşların yekun tibbi müayinəsi (bundan sonra – yekun tibbi müayinə) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən həyata keçirilsin:

1.1. sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında;

1.2. sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında;

1.3. dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında;

1.4. həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında.

**2.** Müəyyən edilsin ki:

2.1. yekun tibbi müayinə Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən hərbi həkim komissiyalarının tibbi müayinə nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparılır;

2.2. yekun tibbi müayinə ilə bağlı məlumatların toplanılması və həmin müayinənin nəticələrinin rəsmiləşdirilməsi Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi (bundan sonra – altsistem) üzərindən həyata keçirilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla altı ay müddətində:

3.1. müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmanın 1-ci və 2-ci hissələrindən irəli gələn maliyyələşməni təmin etsin;

3.3. Agentliyin inzibati bina ilə təmin edilməsi üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Nazirlik:

4.1. 2024-cü il iyulun 1-dək altsistemin təkmilləşdirilməsini təmin etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 sentyabr 2023-cü il**

# Hikmət Hacıyev Binyamin Netanyahu ilə görüşüb



**İsrailin Baş naziri Binyamin Netanyahu və Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev arasında görüş olub.**

XQ xəbər verir ki, bu barədə Azərbaycanın İsraildəki səfirliyinin "X" səhifəsində bildirilib.

"Binyamin Netanyahu cənab Hacıyevi qəbul edib, o, İlham Əliyevin salamlarını və ən xoş arzularını Baş nazirə çatdırıb. Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq məsələləri və gələcək perspektivlər müzakirə olunub", – səfirliyin məlumatında qeyd olunub.

*

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailə səfəri çərçivəsində bu ölkənin Xarici İşlər Nazirliyinin baş direktoru Ronen Levi ilə görüşüb.**

Bu barədə Azərbaycanın İsraildəki səfirliyinin "X" hesabında paylaşımında bildirilir ki, görüş zamanı Azərbaycanla İsrail arasında ikitərəfli əlaqələr, eləcə də iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

**XQ**

# Ceyhun Bayramovun Xorvatiya görüşləri



**Dünən Xarici İşlər naziri Ceyhun Bayramov Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Andrey Plenkoviç ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanla Xorvatiya arasında əməkdaşlıq əlaqələri və eləcə də, regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq və dostluq səviyyəsindəki əlaqələrdən məmnunluq ifadə olunub, ikitərəfli siyasi dialoqun və qarşılıqlı yüksək səviyyəli səfərlərin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Ölkələrimiz arasında iqtisadi-ticarət və humanitar sahələr üzrə əməkdaşlıq razılıqla qeyd olunub, mədəniyyət, təhsil, elm və texnologiyalar, minasızlaşdırma, alternativ enerji, əczaçılıq kimi sahələrin Azərbaycan – Xorvatiya tərəfdaşlığını daha da gücləndirəcəyi vurğulanıb.

Görüşdə regionda postmünaqişə reallıqları, Azərbaycan–Ermənistan sülh prosesi barədə müqabil tərəfə məlumat verilib. Bu xüsusda, Azərbaycan tərəfinin irəli sürdüyü sülh gündəliyinə və sərgilədiyi müvafiq konstruktiv təkliflərə rəğmən, Ermənistanın nümayiş etdirdiyi ziddiyyətli və təxribatçı mövqe və fəaliyyətlərdən bəhs olunub.

*

**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov sonra Xorvatiyanın Xarici və Avropa İşləri naziri Qordan Qrliç Radman ilə görüşüb.**

İki nazir arasında təkbətək, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli görüşdə bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan – Xorvatiya münasibətlərinin inkişafından məmnunluq ifadə edilib.

Ceyhun Bayramov münaqişədən sonrakı dövrdə regiondakı vəziyyət və reallıqlar, o cümlədən, Azərbaycan–Ermənistan sülh prosesi, mina təhlükəsi barədə qarşı tərəfi məlumatlandırıb. Laçın – Xankəndi yolu ətrafında yayılan iddiaların heç bir əsasının olmadığı diqqətə çatdırılıb.

Xarici işlər nazirləri ADA Universiteti və Xorvatiya Respublikasının Xarici və Avropa işləri Nazirliyinin Diplomatik Akademiyası arasında Anlaşma Memorandumu imzalayıblar.

Sonda tərəflər görüşün nəticələrinə dair mətbuata bəyanatlarla çıxış ediblər.

*

**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Xorvatiyaya rəsmi səfəri çərçivəsində bu ölkənin İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Davor Filipoviç ilə də görüşüb.**

Söhbət zamanı tərəflər iki ölkə arasında iqtisadi-ticarət əlaqələri, eləcə də enerji, informasiya texnologiyaları, turizm, əczaçılıq, minatəmizləmə və digər sahələr üzrə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin bir milyard ABŞ dollarına çatdığı məmnunluqla vurğulanaraq qeyd olunan sahələr üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlığın şaxələndirilməsi və gücləndirilməsi üçün geniş perspektivlərin olduğu, bu istiqamətdə iki ölkə arasında təmasların artırılmasının vacibliyi diqqətə çatdırılıb.

Görüşdə tərəflər postmünaqişə dövründə xorvat şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində reallaşdırılan layihələr üzrə əməkdaşlıq istiqamətləri, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

**XQ**

# Humanitar yük 10 gündür Ağdam–Xənkəndi yolunda qalıb

**Avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan erməniəsilli sakinlər üçün göndərilən və içərisində 40 ton un məmulatı olan iki yük avtomobili 10 gündür Rusiya sülhməramlılarının Ağdam–Xankəndi yolundakı postunda gözləyir.**



Cəmiyyətin əməkdaşları, könüllülər ərazidə qurulan çadırlarda gecələyirlər. Onlar ərzaq yükünü Qarabağ iqtisadi rayonunda yaşayan erməniəsilli sakinlərə çatdırmaq üçün israrlıdırlar.

Xatırladaq ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndələri gətirdikləri yükün keyfiyyət sertifikatını Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarına təqdim ediblər. Hazırda yükün erməniəsilli şəxslərə çatdırılması üçün danışıqlar davam etdirilir.

**XQ**

# Müdafiə Nazirliyinin məlumatı

**Dünən Türkiyənin Azərbaycana yeni təyin edilən hərbi attaşesi general Soner Oruçoğlu Müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, müdafiə naziri onu ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edib. Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Türkiyənin Azərbaycandakı yeni təyin edilən hərbi attaşesi müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov ilə də görüşüb.

*

**2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin bir qrup hərbi qulluqçusu Gürcüstana səfər edib.**

Səfər çərçivəsində Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstan Müdafiə Nazirliyinin Hərbi Polis Departamentinin rəisi polkovnik Kaxa Petriaşvili ilə görüşüb.

Görüşdə hərbi polis orqanlarının fəaliyyətinin təşkili, təhlükəsizlik, mövcud əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

*

**Dünən saat 12:10 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

**XQ**

# Slovakiya parlamentariləri Füzuli və Şuşada



**Ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Milli Şurasının Sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 6- da Füzuli Beynəlxalq Hava Limanına gedib.**

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqlara hava limanı haqqında məlumat verib. O, Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının ən müasir səviyyədə inşa olunduğu diqqətə çatdırıb. Bildirib ki, hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. E.Hüseynov, həmçinin Füzulidə görülən və görüləcək işlər barədə slovakiyalı qonaqlara məlumat verib.

Qeyd olunub ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri və digər təyinatlı zonalar yaradılacaq.

Sonra qonaqlar Füzuli şəhərində ermənlərin törətdikləri vəhşiliklərlə tanış olublar. Onlara ermənilərin 30 illik işğal dövründə ölkəmizə qarşı törətdikləri cinayətlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, ermənilər bütün evləri, sosial obyektləri dağıdıb, təsərrüfatları məhv ediblər. Həmçinin ərazilərin Ermənistan tərəfindən minalandırılması, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib.

*

Həmin gün slovakiyalı deputatlar Şuşaya səfər ediblər. Qonaqlara şəhər haqqında məlumatlar verilib. Bildirilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları-qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfərdən sonra Prezident İlham Əliyev 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan edib. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunub.

***Ə.BƏDƏLOV***
***XQ***

# Makron İrəvan və Bakıya səfər edəcəkmi?

**Ermənistanın "Alpha News" nəşri mənbəyə istinadla xəbər verib ki, Fransa prezidenti Emmanuel Makron çox güman ki, bu həftəsonu Ermənistana səfər edəcək və Qarabağla bağlı yeni bəyanat verəcək.**

Səfər sentyabrın 9–10-na planlaşdırılıb. Məlumatda Makronun İrəvandan sonra Bakıya səfər edəcəyi bildirilir. Amma Fransa bu məlumatı rəsmi olaraq təsdiq etməyib.

**XQ**

# Ermənistan–Rusiya münasibətləri: Uçurum getdikcə dərinləşir

## Roma statutunun ratifikasiyası İrəvana Azərbaycan qarşısında heç bir üstünlük qazandırmayacaq

**Nikol Paşinyanın beş il öncə Hayastanda hakimiyyətə gəlişindən sonra Ermənistan-Rusiya münasibətlərində soyuq küləklər əsməyə başladı, – desək, yəqin ki, səhv etmərik. Bu küləklər bəzən güclənir, bəzən səngiyir, amma heç kəsilmir. Məsələ ondadır ki, Ermənistan-Rusiya münasibətlərində ziddiyyət yaradan bir sıra ciddi səbəblər də var və rəsmi İrəvan bu səbəbləri aradan qaldırmaqda heç də maraqlı görünmür. Əksinə, son vaxtlar onların sırasına biri də əlavə olunub. Söhbət Ermənistan hökumətinin Beynəlxalq Cinayət Məhkəməsinin 1998-ci il iyulun 17-də imzalanmış Roma statutuna qoşulmaqda israrlı olmasından gedir.**



Sonuncu dəfə bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlama verib. O, sentyabrın 5-də keçirdiyi mətbuat konfransında jurnalistlərin suallarına cavab olaraq deyib: "Biz artıq Ermənistan tərəfindən bu məsələyə aydınlıq gətirilməsini istəmişik və növbəti addımlarımızı İrəvanın cavabının məzmunu əsasında müəyyən edəcəyik".

Qeyd edək ki, Ermənistan hökuməti Roma statutuna qoşulmaqla bağlı 2022-ci ildə Konstitusiya Məhkəməsinə sorğu göndərmişdi. Konstitusiya Məhkəməsi bu ilin martın 24-də Roma statutunda təsbit edilmiş öhdəliklərin konstitusiyaya uyğunluğunu tanıyan qərar qəbul etmişdi. Bundan bir həftə əvvəl – martın 17-də isə Beynəlxalq Cinayət Məhkəməsi Rusiya Prezidenti Vladimir Putinin və Rusiya Prezidenti yanında Uşaq hüquqları üzrə müvəkkil Mariya Lvova-Belovanın həbsinə order vermişdi.

Yeri gəlmişkən, qeyd edək ki, 2023-cü ilin mart ayına olan məlumata görə, Roma statutunu 137 dövlət imzalayıb, onlardan 123-ü sənədi ratifikasiya edib. Bu isə Rusiya Prezidentinin statutu ratifikasiya etmiş ölkələrdən hansısa birinin ərazisinə daxil olacağı təqdirdə həbs olunaraq, Beynəlxalq Cinayət Məhkəməsinə veriləcəyi deməkdir. Yada salaq ki, V.Putin məhz bu səbəbdən, BRİKS-in (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasından ibarət dövlətlərarası birlik-S.H.) cari ilin avqustun 22-24-də Yohannesburq şəhərində keçirilən XV sammitində iştirak edə bilməmişdi. Çünki Cənubi Afrika Respublikası Roma statutunun iştirakçısıdır və BCM-in yurisdiksiyasını tanıyır. Əgər V.Putin onun ərazisinə gələrdisə, ölkə hakimiyyəti BCM-in orderi əsasında onu həbs etməyə borclu idi.

İndi isə Rusiya Prezidentini belə bir aqibət ən yaxın strateji müttəfiqlərindən biri olan Ermənistan Respublikasında da gözləyir. O Ermənistan Respublikasında ki, onun yaradıcısı Rusiya imperatoru I Nikolaydır. İmperatorun 1828-ci il martın 21-də – Azərbaycan xalqının böyük coşğu ilə qeyd etdiyi Novruz bayramı günü imzaladğı sərəncamla keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılıb. Sonrakı dövrdə– istər digər çarların, istər Sovet İttifaqının, istərsə də müasir Rusiya Federasiyasının ermənilərə və Ermənistana necə böyük himayədarlıq etdiyi hamıya yaxşı məlumdur. İndi belə bir dövlətdə Rusiya Prezidentinin həbsinin, hətta nəzəri baxımdan gündəliyə gəlməsi rusları son dərəcə hiddətləndirib. Rusiya XİN-in rəsmi nümayəndəsi M.Zaxarovanın Ermənistan hökumətinin məsələyə aydınlıq gətirməli olduğunu deməsi bu hiddətin diplomatik ifadəsidir.

***

Qeyd etdiyimiz kimi, Ermənistan Konstitusiya Məhkəməsinin Roma statutunda təsbit edilmiş öhdəliklərin konstitusiyaya uyğunluğunu tanıyan qərar qəbul etməsi Beynəlxalq Cinayət Məhkəməsinin V.Putinin həbsi ilə bağlı order çıxarması ilə eyni vaxta təsadüf etmişdi. Bundan sonra Rusiyada və Ermənistanda qızğın müzakirələrin başlanması Paşinyan hökumətini fasilə götürməyə məcbur edib. Hiss olunurdu ki, məsələ gündəlikdən tamamilə çıxarılmayıb, rəsmi İrəvan coşmuş emosiyaların səngiməsini gözləyir. Belə də oldu. Ermənistan hökuməti sentyabrın 1-də Roma statutunu ratifikasiya üçün parlamentə göndərib.

Rusiyadan isə buna ciddi etirazlar var. Hələ iki ay öncə – iyulun 20-də Rusiya parlamentinin yuxarı palatasının (Federal Məclisin Federasiya Şurası-S.H.) sədr müavini, Ermənistan–Rusiya parlamentlərarası komissiyasının həmsədri Yuri Vorobyov bildirmişdi ki, Ermənistan parlamenti Roma statutuna qoşulmağın nəticələrini öyrənməlidir. İrkutskda parlamentlərarası komissiyanın iclasında çıxış edən Vorobyov Ermənistan Konstitusiya Məhkəməsinin 2023-cü il martın 24-də Roma statutunun ölkə konstitusiyasına zidd olmadığı barədə qərarını şərh edərkən demişdi: "Anladığımız kimi, bu, o deməkdir ki, Ermənistan Haaqa Tribunalının baxdığı bütün işlərə münasibətdə yurisdiksiyasını tanıyır. Biz ondan çıxış edirik ki, erməni tərəfdaşlarımızın bu addımı anti-Rusiya məzmunu daşımır, lakin buna baxmayaraq, praktikada, bu, Rusiya–Ermənistan münasibətlərinə ciddi ziyan vurur. Biz müttəfiqlərimizi Roma statutuna qoşulmağın nəticələrini bir daha diqqətlə öyrənməyə və Rusiya ilə müttəfiqlik münasibətləri üçün mümkün riskləri qiymətləndirməyə çağırırıq". O qeyd etmişdi ki, hazırda məsələ ilə bağlı Rusiya və Ermənistan xarici işlər nazirlikləri arasında dialoq aparılır.

Hayastan parlamentinin sədr müavini Akop Arşakyan cavabında bildirmişdi ki, sənədin qəbulu məsələsi heç bir halda Rusiyaya qarşı yönəlməyib və Azərbaycanın, guya, Ermənistanın suveren ərazisinə təcavüzünün (?) qarşısını almağa xidmət edəcək.

O qeyd etmişdi ki, Roma statutunun qəbulu məsələsi Ermənistan və Rusiya XİN-in ekspert dairələrində fəal müzakirə olunur. Arşakyan məsələnin mütləq hüquqi həllinin tapılacağına, bunun Ermənistan və Rusiya üçün məqbul olacağına inandığını bildirmişdi.

***

Göründüyü kimi, Ermənistan hökuməti özünün anti-Rusiya addımını pərdələmək üçün Azərbaycanın adını hallandırır. Guya, sənədin ratifikasiyası Azərbaycanın Ermənistan ərazisinə hansısa "təcavüzü"nün qarşısını almağa kömək edəcək. Rəsmi İrəvan Azərbaycanı məhkəməyə vermək niyyətini gizlətmir. Ancaq məsələ ondadır ki, Azərbaycan Roma statutunu imzalamayıb və beləliklə, Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmayıb. Azərbaycanın qoşulmadığı sənədlər bağlı onu "mühakimə" etmək praktik olaraq mümkün deyil. Üstəlik, məhkəmənin çıxaracağı qərarın İrəvanın xeyrinə olub-olmayacağı məsələsi var.

**Rusiyalı politoloq Aleksey Naumov** da bu fikirdədir ki, Ermənistanın BCM-in yurisdiksiyasına daxil olması Azərbaycanla qarşıdurmasında İrəvana heç bir şəkildə kömək etməyəcək. "İrəvan BCM-dən Azərbaycana qarşı dəyənək kimi istifadə etməyə ümid edir. Amma başa düşmək lazımdır ki, Bakı Qarabağ məsələsində tamamilə öz hüququna malik olduğundan BCM-nin heç bir səlahiyyəti yoxdur və Azərbaycan əleyhinə heç bir qərar çıxarmayacaq. Bu, İrəvanın Azərbaycanı hansısa formada incitmək, daha çox təzyiq göstərmək üçün növbəti cəhdidir, lakin uğur qazanmaq üçün heç bir şansı və perspektivi yoxdur", – deyə politoloq "Nyus.ru"ya müsahibəsində bildirib.



Naumov əmindir ki, sənədin ratifikasiyasına Moskvadan dərhal reaksiya olmayacaq. Lakin iki ölkə arasında münasibətlər geridönməz şəkildə pozulacaq, çünki Moskva birbaşa təzyiqlərə dözməyəcək: "Səfirin ölkədən çıxarılması və digər güclü qərarlar olmayacaq. Amma bu, təbii ki, Rusiya–Ermənistan münasibətlərinin tabutuna mismar vuracaq. Məsələ burasındadır ki, Ermənistan Rusiyanın müttəfiqi olmaqla özünü həmişə müttəfiq kimi aparmır. Ekspertlər arasında tez-tez Moskvanın İrəvanla ittifaqdan Cənubi Qafqazdakı hərbi baza ilə bağlı bəzi ümumi sözlərdən başqa nə əldə etdiyi ilə bağlı suallar qaldırılır. Əslində, heç nə əldə etmir. Ermənistan bu vəziyyətdən həzz alır. İndi isə bunu etmək mümkün deyil – bütün maskalar yırtılıb".

Rusiyanın məşhur "Rıbar" teleqram kanalının müəllifləri də qeyd edirlər ki, Roma statutunun ratifikasiyası Ermənistana Azərbaycan qarşısında heç bir üstünlük verməyəcək. Bunun əvəzində Rusiya ilə münasibətlərdə təxribatların möhkəm təməli qoyulacaq. Bura gələcəkdə ölkələr arasında münasibətləri pozmaq təhlükəsi yarada biləcək təxribatlar da daxildir.

Göründüyü kimi, Paşinyan hökumətinin bu avantürist qərarı ilə Ermənistan–Rusiya münasibətlərinə daha bir zərbə vuruldu. Əgər Ermənistan parlamenti Roma statutunu ratifikasiya etsə, bundan Azərbaycanı "mühakimə etmək üçün" yararlana bilməyəcək, əvəzində isə Beynəlxalq Cinayət Məhkəməsinin orderləri bundan sonra Ermənistan ərazisində məcburi olacaq. O cümlədən, Rusiya Prezidenti Vladimir Putinin həbsi üçün BCM-nin mart ayında verdiyi order. Bundan sonra Ermənistan–Rusiya münasibətlərinin necə olacağını isə təsəvvür etmək çətin deyil.

***Səxavət HƏMİD***
***XQ***

### EKSPERT RƏYİ



**Fərhad MƏMMƏDOV, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru:**

– Roma statutu ilə bağlı məsələnin siyasi və hüquqi tərəfi var. Rusiya əsasən məsələnin siyasi tərəfi ilə bağlı narahatlığını bildirir. Bildiyimiz kimi, BCM Rusiya Prezidentinin həbsi ilə bağlı order çıxarıb. Əgər Ermənistan sənədi ratifikasiya etsə, Putin həmin ölkənin ərazisinə daxil olduğu anda onu həbs edib BCM-ə təhvil verməlidir. Məhz bu məsələyə görə Putin BRİKS-in sammitində iştirak edə bilmədi. CAR rəhbərliyi ilə Rusiya rəhbərliyi arasında fikir ayrılığı yarandı. İndi Ermənistanın da belə bir öhdəlik götürməsi Putinlə bağlı məsələni aktuallaşdırır. Məsələnin siyasi tərəfi budur və anti-Rusiya addımı kimi qiymətləndirilir.

Ermənistan isə bunun sırf hüquqi məsələ olduğunu israr edir. Bu məsələ hüquqi baxımdan da əsassız bir iddiadır. Çünki sənədi ratifikasiya etsələr belə, onun hüquqi qüvvəsi geriyə şamil olunmur. Yəni, sənədin hüquqi qüvvəsi onun ratifikasiya olunacağı gündən sonra baş verən hadisələrdə keçərlidir. Digər tərəfdən, onların iddia etdikləri "hərbi cinayətlər" Ermənistan Respublikasının ərazisində baş verməlidir. Onlar Qarabağla bağlı heç bir halda müraciət edə bilməyəcəklər. Yəni, sənədin Azərbaycana qarşı istifadə olunması, demək olar ki, qeyri-mümkündür. Bundan əlavə, Azərbaycan Roma statutuna qoşulmayıb və belə olan halda BCM-in qərarları Azərbaycan üçün keçərli hesab edilmir.

KÖŞƏ

# Lemkinçilik, yoxsa ermənipərəstlik

## Bəşəri humanizm carçısının adını daşıyan qurumun növbəti rəzaləti

**"Soyqırımı" termininin və BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya layihəsinin müəllifi, keçmiş SSRİ-də doğulmuş, 1941-ci ildə ABŞ-a mühacirət etmiş yəhudi mənşəli Rafael Lemkin sağ olsaydı, heç şübhəsiz, dəhşətə gələrdi. Çünki onun adını daşıyan institut bu böyük dühanın vandalizm aktlarından, etnik təmizləmələrdən qorunmaq məqsədilə göstərdiyi təşəbbüsü ermənipərəstliyə xidmət platformasına çevirib.**

Bəli, Soyqırımı cinayətlərinin qarşısının alınması üzrə Lemkin İnstitutu ilk dəfə deyil ki, yaramaz dəst-xətt seçir. Qurum 2021-ci ildən bu "yoldadır". 2023-cü ilin mayından başlayaraq isə "fəaliyyətini aktivləşdirib". Bu ilin may ayında institutun başbilənləri Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə ağıl öyrətməyə qalxmışdılar. Onlar bildirmişdilər ki, Aİ Şurası geosiyasi duruma və enerji məsələlərinə görə Azərbaycanın "diktatura"sına göz yumur...

Lemkin İnstitutu Azərbaycan və Ermənistan liderlərinin mayda keçirilmiş Brüssel görüşü ərəfəsində Şarl Mişelə göndərdiyi açıq məktubda onu da vurğulamışdı ki, Qərb dünyası Qarabağın blokadasına məhəl qoymamağa davam etməklə, guya, indiyədək heç vaxt Azərbaycanın olmayan 4000 illik (?) yerli erməni icması ilə, onun istədiyi kimi rəftarını tamamilə cəzasız saxlayır.



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Digər tərəfdən, görünür, Lemkin İnstitutunda çalışan ermənilərin, yaxud ermənipərəstlərin sayı həddən artıq çoxdur və onlar 44 günlük müharibə dövrünü gözəl xatırlayırlar. Nəinki xatırlayırlar, eyni zamanda, incələyirlər də. Qurumun başbilənləri Azərbaycan Prezidenti İlham Əliyevin müharibə ritorikasından irəli gələn o zamankı ifadələrinin hamısını mayda Ş.Mişelə yazdıqları məktuba köçürüb, bu yolla həm ikincinin fikirlərinə təsir göstərməyə, həm də dünya ictimaiyyətinə ölkəmizi mənfi yöndə təqdim etməyə çalışmışdılar. "Lemkinçilər" indi də "ənənələrinə" sadiqdirlər.

Əlqərəz, Lemkin İnstitutu Qarabağda "soyqırımı" təhlükəsi ilə bağlı saxtalığı şübhə doğurmayan hesabat dərc edib. Sənədin girişində bildirilib ki, onun ərsəyə gəlmə səbəbi həm blokada şəraitinin yaratdığı soyqırımı təhlükəsidir, həm də Azərbaycanın, guya, Qarabağda və Ermənistanın sərhədləri boyunca hərbi toqquşma yaratmaq istəməsidir. Qondarma tarixi notlara köklənmiş hesabatda Türkiyə amili də qabardılıb. Ankaranın Bakıya silah satması üzərində dayanılıb. Elə bil, müharibə dövründə Ermənistan xaricdən silah almırdı... "Lemkinçilər", həmçinin, bu qənaətdədirlər ki, 44 günlük müharibənin başa çatması və rus sülhməramlılarının Qarabağda yerləşdirilmələri, bölgəyə sülh gətirmədi. Azərbaycan, guya, hərbi təxribatını davam etdirir və sair.

Anlamaq olmur, bu sadalananların soyqırımı məsələsinə, daha doğrusu, Lemkin İnstitutunun işinə nə dəxli var? Belə çıxır ki, qurum dünyanın istənilən nöqtəsində baş verən hərbi qarşıdurmalardakı tərəflərdən birinə, belə demək mümkünsə, soyqırımı törədən yarlığı yapışdıra bilər. Axı, soyqırımının Rafael Lemkinin özü tərəfindən dəqiq müəyyənləşdirilmiş əlamətləri var. Bu əlamətlər onun müəllifi olduğu və haqqında yazımızın ilk cümləsində söz açdığımız konvensiyada açıq şəkildə göstərilib. Görəsən, niyə "lemkinçilər" onlardan birini misal olaraq göstərmirlər?

Təsəvvür edin, institutun özünün dəyərləndirməli heç nəyi yoxdur, durub əsas kimi Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, beynəlxalq miqyaslı argentinalı dələduz Luis Moreno Okamponun hesabatına istinad edir. Lemkin İnstitutunun hesabatındakı daha bir məqamın da onun adından irəli gələn iş prinsipinə heç bir dəxli yoxdur – qurum dünyanın ermənipərəst təşkilatlarının anti-Azərbaycan yönümlü sənədlərindəki qərəzli motivləri bir-birinə calayır. Guya, soyqırımı üçün əsas formalaşdırır. Ən başlıcası isə "lemkinçi" tutuquşular belə qənaətə gəlirlər ki, sən demə, Azərbaycanın siyasi sistemi ilə "Artsax"ın siyasi sistemi arasında uyğunsuzluq var. Əlbəttə, desəydi ki, ikincidə separatçılıqdır, bu, müəyən qədər ədalətli yanaşma olardı. Hərçənd, belə bir ədalətin də "Lemkin" başbilənlərinə qətiyyən aidiyyatı yoxdur.

Əlbəttə, Lemkin İnstitutunun hesabatındakı digər yaramazlıqlardan da söz aça bilərik. Başlıca məqamı bildirdik. Yenə də deyək ki, institut bir dənə də konkret məqama diqqət yetirmir ki, onu soyqırımı kimi qiymətləndirmək mümkün olsun. Onun diqqətə çatdırdıqları Ermənistan baş naziri Nikol Paşinyanın və komandasının, o cümlədən, Qarabağdakı separatçıların, erməni lobbi və diaspor təşkilatlarının təkrarladıqlarından başqa bir şey deyil.

Sonda yenidən Rafael Lemkinin üzərinə qayıdaq. O, bəşəriyyət üçün çox böyük işlər görüb, xidmətləri danılmazdır. Çox təəssüf ki, onun adını daşıyan qurum siyasi oyunbazlıqlar üçün alətdir. Ən pisi isə budur ki, təkcə Lemkin İnstututu deyil, eləcə də insan hüquq və azadlıqlarının təminatına çalışdığını bəyan edən digər qurumlar da bəşəri dəyər və prinsiplərlə manipulyasiya yolu tuturlar. Bu gün Qarabağda baş verənlərin timsalında gerçəklikləri nəzərə almayıb ədalətsizliyə yol açanlar, heç şübhəsiz, sabah həqiqi soyqırımı hadisələri qarşısında susqunluqları ilə də eyni yaramazlıqlarını davam etdirəcəklər. Necə ki, 1992-ci ildə Xocalıda baş verənlərə münasibətdə susmuşdular.

# "Paşinyanın kobud səhvləri Azərbaycana böyük üstünlüklər verir"

## Erməni politoloqun fikrincə, indiki vəziyyət regionu yeni müharibəyə aparacaq

**"Arminfo" xəbər portalı sentyabrın 5-də Aleksandr Avanesov adlı bir müəllifin "Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların yenilənməsi riski nəzərəçarpacaq dərəcədə böyümüşdür" adlı məqaləsini vermişdir. Müəllif bu qənaətini Vahe Ovannesyanın "Alternativ layihələr" ekspert qrupunun araşdırmalarına əsasən qələmə aldığını bildirir.**

"Alternativ layihələr"in məqaləsində göstərilir ki, Ermənistan baş naziri Nikol Paşinyanın danışıqlar prosesində buraxdığı kobud səhvlər nəticəsində yaranmış vəziyyət bizi müharibəyə sürükləyir. Məhz onun səhvləri üzündən Azərbaycanda "Artsax" (Qarabağ iqtisadi rayonu) və Ermənistan ərazisindəki 8 anklavı almaq barədə böyük gözləntilər yaranmışdır. Ekspertlər qrupu hesab edir ki, vəziyyət son dərəcədə gərgindir və ona görə də reallığı (Yəqin ki, Azərbaycanın yaratdığı yeni reallıqları nəzərdə tutur – İ. M.) dəqiq qiymətləndirərək, irəli getmək lazımdır.

Ovannesyanın qrupunun fikrincə, Ermənistanın indiki rəhbərliyi Əliyevin (Azərbaycan Prezidenti nəzərdə tutulur– İ. M.) səbrinə köklənmişdir. O səbir ki, Bakının addımlarını həmişə dəqiq korrektə edir və sığortalayır. Qərbin, Rusiyanın, Türkiyənin və Azərbaycanın bütün bəyanatları Ermənistana "Əliyevin səbri"ni xatırladır.

Əliyevin səbri bizim öz səhvimiz ucbatından üz-üzə qaldığımız real faktor və təəssüf ki, yeganə "ölçü vahidi"dir. Bəs onun səbri nə qədər davam edəcək?.. Bir ay, iki ay? Problem bunda deyil. Bizim vəzifəmiz bu blokdan dəqiq hesablamalar nəticəsində çıxmaqdan ibarətdir. Mühasirə məntiqi, vasitəçilərin davranışı, Rusiya ilə münasibətlərin durmadan gərginləşməsi sübut edir ki, bu proses bizi müharibəyə doğru aparır.

Hamıya məlumdur ki, danışıqlar prosesi məhz dəqiq olmayan mündəricələrə görə nəticəsiz başa çatmışdır. Bu, Ermənistanın problemidir. Bu gün biz, təxminən, 2020-ci ilin yayındakı vəziyyətdəyik. Nikol bunu çox yaxşı başa düşür. O anlayır ki, danışıqların pozulması birbaşa müharibə deməkdir.

Müəllifin fikrincə, Rusiya ilə münasibətlərin bu səviyyədə pisləşdirilməsi son dərəcə avantürist addımlar idi. Hakimiyyətin hesablamaları aydındır: Bu vəziyyət Nikol Paşinyana bəzi şəxsi şanslar verəcək, ancaq dövlət üçün fəlakətlə nəticələnəcək.

***Təqdim etdi:***
***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Özü yıxılan ağlamaz

## Peskov və Zaxarova Nikola ürək-dirək verdilər



**(əvvəli 1-ci səhifədə)**

Ümumən, bu da göründü ki, Peskov özünün, belə demək mümkünsə, anti-Nikol ritorikasında daha çox reallıqları dilə gətirməyə, Zaxarova isə sırf həmin reallıqlara uyğun cavab motivinə köklənib. Hər bir halda, onların ikisinin də münasibəti dolayısı ilə ilk cümləmizdəki atalar sözünü xatırladır.

***

Bəli, özü yıxılan ağlamamalıdır. N.Paşinyanın şəxsində Ermənistan dövlətinin, bütövlükdə, dünya erməniliyinin işi-gücü ağlamaqdır, kimdənsə kömək ummaqdır. Əslində, bu mənzərədə də heç bir yenilik yoxdur. Erməni qövmü tarixən belə olub. Sırtıqlığa bax ki, özünə münasibətdə qəhrəman, yenilməz obrazını formalaşdırmağa da cəhd göstərib. Necə ola bilər ki, qəhrəman yalvarır, başqasından mədət umur?..

...Erməni qövmü ötən əsrin 80-90-cı illərində ona-buna yalvara-yalvara, ondan-bundan kömək uma-uma Azərbaycan torpaqlarını işğal etdi, bir milyona yaxın həmvətənimizi doğma yurd-yuvasından didərgin saldı. Başqalarının böyük kölgəsinə sığınaraq elə bildi ki, öz kölgəsidir. Eyni zamanda, azərbaycanlılarla bağlı alverçi, ticarətçi obrazı yaratmağa girişdi. Sanki bunlar ali irq, azərbaycanlılar isə ikinci dərəcəli imişlər. Halbuki, tarix bunun əksini deyir. Həmişə erməni qövmü azərbaycanlıların, ümumən, türklərin əlinin altında təbəə qiyafəsində yaşayıb.

Ermənilər ətraflarında həmişə böyük xalqların nümayəndələrini görüb, onlara çatmaq arzusunda olublar. Ancaq bunun üçün çalışmağı, səy göstərməyi deyil, təfriqəçilik, ziyan, zərər vurmaq yolunu seçiblər. Erməni qövmü böyük bildiyinin yerində olmağın, ona çatmağın düsturunu həmin böyüyü aradan götürməkdə görüb. Çünki xisləti çürükdür. Bu gün də həmin çürük xislətlilərin nəsilləri alverçi, ticarətçi kimi təqdim edib aşağıladıqları xalqın məğrurluğunu həzm edə bilmirlər. 44 günlük müharibə acı bağırsaq kimi dolaşıb əl-qoluna.

Onu da bildirək ki, tarix boyu erməni millətçiliyinin hərəkətverici qüvvəsi rolunda rus şovinizmi çıxış edib. Hər iki tərəf bir-birinə "xidmət" göstərib. SSRİ-nin dağılmasından sonrakı proseslər də rus-erməni işbirliyinin ön planda olduğunu təsdiqlədi. Yəni, torpaqlarımızın işğalı bu "tandem"in anti-bəşəri davranışının nəticəsinə çevrildi. Ancaq vaxt-vədə dolandı, ermənilər Rusiyaya qarşı nankorluğa keçdilər. Necə ki, vaxtilə türklərə dönük çıxmışdılar, eyni əməli ruslara münasibətdə də həyata keçirdilər. 2018-ci ildə N.Paşinyanın hakimiyyətə yiyələndiyi inqilabı reallaşdırdılar, üzlərini Qərbə çevirib demokratlıq iddiasına düşdülər. Əslində isə Rusiyanın hamiliyini bəyənmədilər. Qərbi gördülər və bu dəfə çalışdılar ki, bu qütbün ayrı-ayrı dövlətləri kimi böyük olsunlar. Özlərində heç bir potensial formalaşdırmadan ermənilikdən çıxıb, məsələn, fransıza, almana, ingilisə çevrilmək niyyətinə baş vurdular.

Ermənilər boz, üzərində heç bir intellektuallıq, dünyagörüşü cizgilərini daşımayan üzlərini Qərbə çevirərkən, guya, keçmişin qalıqlarından qurtururmuş kimi davrandılar. Təxminən belə: "Qarabağ Ermənistandır və nöqtə". Özünü demokratiyanın qladiatoru sayan Paşinyan elə zənn etdi ki, ona inqilabı gerçəkləşdirməkdə, rus köləliyindən çıxmaqda yardımçı olan Qərb əməli işə keçib Ermənistanı Azərbaycanla mübarizədə tək buraxmayacaq. Ancaq erməni cəmiyyəti və ictimai rəyi anlaya bilmədi və bu gün də anlamır ki, belə yanaşma, yumşaq desək, düzgün deyil. Dünyada çox qruplaşmalar, çox koalisiya və birliklər qeydə alınıb. Onlardan ayrılanlara nankor damğası vurulmayıb. Niyə? Çünki işlərini tədbirli görüblər, siyasət qurublar, düşünüb-daşınıblar. Erməni xislətinə hakim kəsilmiş avantürizm isə düşünməyə imkan tanımır. Həmin avantürizmin bildiyi, şüuruna yerləşdirdiyi yırtıcılıq, amansızlıq və dönüklükdür.

***

Bəli, həm Zaxarova, həm də Peskov, əslində, məhz erməni xarakteri üçün müəyyənləşdirdiyimiz cizgilərdən irəli gələn məqamları qabartdılar. Güman edirik, onların hər ikisinin, başqa, kifayət qədər, tutarlı arqumentləri də var idi. Həmin arqumentlərdən istifadəyə lüzum görmədilər. Erməni qövmünün anladığı ritorikanı işə saldılar. Sadəcə, minnət qoydular və aşağıladılar.

Həm Zaxarova, həm də Peskov, faktiki olaraq, bildirdilər ki, ermənilərlə anlaşma, razılıq kimi meyarlar yalnız kağız parçasıdır. Onlar, əslində, bu varlığın avantürizmin sərhədlərini çox geniş götürdüyün və həmin genişliyə gedib çıxılmayanadək əldə olunmuş bütün sözləşmələri bir kənara atmaq potensialını ifşa etdilər. Onlar, həmçinin göstərdilər ki, siyasət böyüklər üçündür, kiçiklərin oyuncağı deyil. Ermənistanı kiçiltdilər, əski parçası yerinə qoydular. Onlar kiçiklərin oyuncaqları qırılanda, ağlayaraq böyüklərin üstünə getmələrinin nümunəsi kimi Ermənistanı gördüklərini açıqladılar. Peskov və Zaxarova birlikdə onu da dedilər ki, Paşinyan söylədikləri ilə uşaqlıq edir. Siyasət isə uşaq meydanı deyil.

***

Tarixdən o da məlumdur ki, monqollar üç yüz il rusları əsarətdə saxlayıblar. 1380-ci ilin Kulikova döyüşündən sonra vəziyyətin tədricən dəyişməyə doğru getdiyi də məlumdur. Amma ruslar monqolları yalnız güc hesabına yenmədilər. Onlar əvvəlcə düşüncələrindəki monqol qorxusunu yendilər. Bu gün də həmin yenmə üsullarından biri zərb-məsəl kimi yada salınır. Görürük ki, düşüncəsiz key adama "monqol" deyirlər.

Paşinyan da ruslarla bağlı, təxminən, ikincilərin vaxtilə monqollara qarşı istifadə etdiyi psixoloji gedişə baş vurur. Onun "bir gün ayılacağıq ki, Rusiya Cənubi Qafqazda yoxdur" deyimi, təxminən, eyni effekti verir. Yəni, Nikol Moskvanın zəifliyindən dəm vurur. Təsəvvür edin, Ermənistanın baş nazirinin dediyindən belə çıxır ki, Rusiyanın onun ölkəsinə vermək üçün silahı yetərli deyil. Gülməlidir, deyilmi?

Ona görə də Peskov Paşinyanı yuxudan ayıldır və deyir ki, Rusiyada yaşayan ermənilərin sayı Ermənistanın əhalisinin sayından çoxdur. Bu, o deməkdir ki, istəsək, Ermənistanın yerində yeni birini də qurarıq. Peskov belə fikir bildirməklə, eyni zamanda, əlahəzrət tarixi də yada salır. Axı, Ermənistan dövlətçiliyi Rusiyanın layihəsidir. Erməniləri Qafqaza köçürən Rusiya olub. Hətta, bu layihə üçün vaxtilə İranda səfir olmuş Aleksandr Qriboyedovun başından da keçiblər. O Qriboyedovun ki, erməni nökərlərdən birinin şah sarayındakı erməni kənizlərini də oradan çıxarıb Qafqaza aparmaq istəyinə görə tikə-parçaya çevrildi. "Ağıldan bəla"nın müəllifi olan səfirin faciəvi sonluğundakı səbəb bir tərəfdən özünün ağılsızlığı, yəni davranışına sərhəd tanımaması idisə, digər yandan bölgəni daha çox erməniləşdirmək istəyinin yaratdığı durumu nəzərə almalıyıq.

Bəli, M.Zaxarova və D.Peskov Ermənistana "ağlama" deyirlər. Ancaq dedikləri yalnız bu deyil. Onlar, eyni zamanda, necə deyərlər, sözə qulaq asmadığı üçün ölkəni gözləyən bəlaların anonsunu da verirlər. Zaxarova heç də əbəs yerə bildirmir ki, səhvlərə görə cavab verməyi öyrənmək lazımdır. 44 günlük müharibədən sonra Ermənistan rəhbərliyi, baş nazir Nikol Paşinyan və onun komandası, bir qayda olaraq, səhv edə-edə gedir. İndi də ölkə onların yeni səhvinin yaşadacağı növbəti xoşagəlməz aqibətin astanasındadır. Amma nə Paşinyan və tərəfdarları, nə də bütövlükdə, erməni cəmiyyəti bunu anlayır. Daha doğrusu, hay cəmiyyəti reallığı anlayamacaq qədər iflicdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Orxan Amaşov: "Ərzaq məsələsi" ermənilərin məkrli siyasi oyunudur




**Beynəlxalq hüquq üzrə ekspert, "Temple Garden Chambers" hüquq firmasının məsləhətçisi Rodni Dikson və "Caliber.az" informasiya-analitik portalının siyasi şərhçisi Orxan Amaşov BBC-nin aparıcısı Kristian Freyzerin Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalinin guya "blokada"da qalması barədə təxribatçı suallarını cavablandırıblar.**

R.Dikson Azərbaycan hökumətinin ona Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru Luis Moreno Okamponun Azərbaycan əleyhinə hazırladığı qərəzli hesabatı və orada Azərbaycana qarşı irəli sürülən ittihamları nəzərdən keçirməyi tapşırdığını vurğulayıb. Bu işi qanunvericiliyə əsasən və ictimaiyyətə açıq bütün faktlar əsasında araşdırdığını deyən hüquqşünas bildirib ki, Okamponun guya Qarabağın erməni əhalisinə qarşı "soyqırımı" törədilməsi ilə bağlı ittihamları əsassızdır və bununla bağlı heç bir sübut yoxdur. Bunu soyqırımı ilə eyniləşdirmək olmaz, çünki Okampo buna dair heç bir sübut təqdim etməyib.

Hüquqşünas söyləyib ki, Azərbaycan hökuməti Qarabağın ermənəsilli əhalisinə Ağdam yolu vasitəsilə ərzaq göndərilməsini təklif edir, bu marşrutu Beynəlxalq Qırmızı Xaç Komitəsi və Avropa İttifaqı da dəstəkləyir. "Hesab edirəm ki, özünü ciddi hüquqşünas hesab edən şəxs mülki əhalinin fiziki məhv edilməsi ilə bağlı niyyətin olmasına dair ittiham irəli sürməmişdən əvvəl bu vacib faktları nəzərə almalıdır. Bu, çox ciddi ittihamdır və ərzaq məhsullarının çatdırılması üçün yollar mövcud olduğu halda bunu irəli sürmək olmaz, çünki bunlar bir-birinə zidd olan məsələlərdir", – deyə hüquqşünas bildirib.

O.Amaşov vurğulayıb ki, Azərbaycan hökuməti Ağdam–Xankəndi yolu ilə Qarabağın erməni əhalisinə ərzaq yardımı təklif edib. Beynəlxalq Qırmızı Xaç Komitəsi və Avropa İttifaqı da bu marşrutdan istifadənin mümkünlüyünü qeyd edib. Ərzaq məhsulları Beynəlxalq Qırmızı Xaç Komitəsi kimi müstəqil təşkilatlar tərəfindən bu yolla təmin edilir.

Bildirilib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməni əhaliyə humanitar yük göndərib. Lakin Qarabağın erməni əhalisi bu yardımın qəbul edilməsinə mane olur. Bu yoldan beynəlxalq təşkilatlar istifadə edə bilər. Bu, bir hüquqşünasın mülki əhalinin fiziki məhvi ilə bağlı iddia irəli sürməzdən əvvəl nəzərə almalı olduğu vacib sübutdur. Bu, çox ciddi bir ittihamdır. Ərzaq təminatı üçün yolların mövcud olduğu halda belə bir ittiham irəli sürmək ziddiyyətli fikirdir.

"Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan ermənilərə 40 ton un çatdırmağa çalışır. Lakin bu yük hələ də yolda qalıb və Rusiya sülhməramlı kontingentinin nəzarətində olan əraziyə giriş üçün gözləyir. Sosial şəbəkələrdə yayılan foto və videolardan aydın olur ki, Qarabağda həyatdan zövq alan və heç bir çətinlik çəkmədən yaşayan ermənilər var. Amma təbii ki, ən yaxşı şəraitdə yaşamayanlar da var. Bu problemin həlli üçün Azərbaycan dəfələrlə Ağdam–Xankəndi yolundan istifadə olunmasını təklif edib", – deyə O.Amaşov qeyd edib.

Ərzaq məsələsini Ermənistanın və Xankəndidəki separatçı rejimin siyasiləşdirdiyini vurğulayan siyasi şərhçi bildirib ki, Laçın yolu açıqdır, tibbi yardıma ehtiyacı olanlar və dərman preparatlarının çatdırılması üçün məhdud rejimdə işləyir: "Laçın yolunun böyük yüklərin daşınması üçün niyə uyğun olmaması məsələsi başa düşülməlidir. Çünki bu məsələ ilə bağlı ciddi təhlükəsizlik riski var".

O.Amaşov Azərbaycan tərəfindən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması məsələsinə də toxunub. Bildirib ki, bu məntəqənin yaradılmasının əsas səbəbi Laçın yolundan qanunsuz istifadə olub. Həmin dövrə qədər Laçın yolu ermənilər tərəfindən silah-sursatın daşınması üçün istifadə olunurdu.

Həmçinin qeyd edilib ki, iyunun 15-də Azərbaycan hərbçilərinin atəşə tutulması ilə bağlı insident baş verib, iyulun əvvəlində isə Qarabağ erməniləri Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərdən Qarabağa icazəsiz yük daşımaq üçün istifadə etməyə cəhd ediblər. İyulun 15-də razılıq əldə olunmuşdu ki, həm Laçın yolu, həm də Ağdam–Xankəndi yolu bir-birini tamamlama prinsipinə uyğun işləsin. Daha sonra Ermənistan tərəfi bundan imtina edib.

***AZƏRTAC***

# Zəngəzur dəhlizi ayırıcı yox, birləşdirici layihədir

**İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra Zəngəzur dəhlizi barədə intensiv müzakirələr aparılır. Bu da təsadüfi deyil, çünki dəhliz regionun tranzit və logistika potensialını artıracaq, onun həyata keçirilməsi yeni nəqliyyat marşrutlarının açılmasına gətirib çıxaracaq. Eyni zamanda, bu dəhliz Azərbaycanın iqtisadi qüdrətini artıracaq, regional əməkdaşlığı və sabitliyi gücləndirəcək. Zəngəzur dəhlizi təkcə Cənubi Qafqazın inkişafına deyil, həm də türk dünyasında ticarət, logistika və siyasi əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verəcək. Bu layihənin həyata keçirilməsi bir sıra ölkələrin, o cümlədən, Türkiyənin, İranın, Rusiyanın və Ermənistanın da maraqlarına uyğundur. Lakin İrəvanın mənasız direnişi bu strateji layihənin reallaşdırılmasını ləngidir. Qonşu İranın da layihəyə qısqanclıqla yanaşması Ermənistanın bu məsələdə qeyri-adekvat mövqeyini gücləndirir və regional inkişafa güclü təkan verəcək dəhlizin reallaşmasına mənfi təsir göstərir.**



Prezident İlham Əliyev bildirir ki, Zəngəzur dəhlizi layihəsi Azərbaycan üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, həm də strateji bir layihədir. Dövlət başçısı xüsusilə vurğulayır ki, bu layihənin reallaşdırılması Azərbaycanın təbii hüququdur. Xatırladaq ki, hələ keçmiş SSRİ dövründə Mincivan–Ordubad xətti fəaliyyət göstərirdi, Culfa dəmir yolu isə keçmiş SSRİ ilə İranın arasında tranzit yük daşımalarına imkan yaradırdı. Ancaq 1988-ci ildə Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1992-ci il fevralın 24-dən Naxçıvanın Azərbaycanın digər rayonları ilə birləşdirən dəmir yolunun fəaliyyəti dayandı. İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda uzunmüddətli sülh və firavanlığa yol açaraq regionda güclərin tamamilə yenidən balanslaşdırılması ilə nəticələndi. Azərbaycan və Ermənistan arasında müharibəyə son qoymağa imkan verən üçtərəfli Bəyanatda Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə çıxarılması və regionda nəqliyyat əlaqələrinin bərpası da nəzərdə tutulur. Azərbaycan müharibədə qalib gələn tərəf kimi əməkdaşlıq, sülh üçün konkret təşəbbüslər və təkliflər irəli sürdü, Ermənistanla ölkəmiz arasında düşmənçilik səhifəsini bağlamaq, regional əməkdaşlığı inkişaf etdirmək üçün əməli addımlar atmağa hazır olduğunu bəyan etdi. Ancaq Ermənistan hansısa "ekzistensial təhlükə"dən danışaraq layihənin reallaşdırılmasını ləngidir.

Zəngəzur dəhlizinə Rusiya da müsbət yanaşır. Moskva Avropa istiqamətində yük daşımalarının çətinlikləri fonunda malların tədarükü üçün yeni etibarlı kanallar açılmasında maraqlıdır. Region ölkələrini ən qısa avtomobil və dəmir yolu marşrutları ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılışının bütün tərəflərə fayda gətirəcəyindən Rusiya da məlumatlıdır. Moskvada bildirirlər ki, Zəngəzur dəhlizi Türkiyəyə daha qısa yoldur və bu dəhlizin fəaliyyətə başlaması Ukraynada gedən müharibə fonunda daha da aktuallıq kəsb edir. Bundan başqa, Gürcüstan hərbi magistral yolunda tıxac və qeyri-sabitlik, xüsusən qışda Rusiyadan yüklərin Gürcüstan, Ermənistan və Türkiyəyə qurudan nəqli üçün böyük problemlər yaradır. Şimal qonşumuzun ekspertləri də etiraf edirlər ki, Rusiyanın maraqları baxımından Zəngəzur dəhlizinə qarşı hər hansı arqument tapmaq çətindir.

Eyni sözləri İran barəsində də demək olar. Zəngəzur dəhlizi İrana regional müstəvidə qonşuları ilə daha əlçatan və daha keyfiyyətli əlaqə yaratmasına imkan verəcək. Məsələn, hazırda Gürcüstanla İran arasında dəmir yolu xətti yoxdur. İki ölkə arasında Zəngəzur dəhlizi reallaşdıqdan sonra dəmir yolu əlaqəsi yaradılacaq. Ancaq bütün bu faydalara rəğmən İran dəhlizlə bağlı birmənalı mövqe sərgiləmir. İran Ermənistanı Avrasiya ilə kritik bir əlaqə kimi görür və ehtiyat edir ki, Zəngəzur dəhlizinin açılması Tehranı İrəvanla quru sərhəddən məhrum edə bilər. İran narahatdır ki, Zəngəzur dəhlizi Tehranın geoiqtisadi dəyərini azaldacaq. Yəni, Tehran əndişələnir ki, Zəngəzur dəhlizi Türkiyə ilə Mərkəzi Asiya arasında İranın birləşdirici roluna son qoyacaq. Qeyd edək ki, Türkiyənin Mərkəzi Asiya ilə ticarətinin əsas hissəsi Rusiya və İran üzərindən yük maşınlarının tranzitinə əsaslanır. Hər il, təxminən, 43 min türk yük maşını İrandan Orta Asiyaya keçir. Tehran ehtiyat edir ki, Zəngəzur dəhlizinni açılması bu tranzit daşımalarına mənfi təsir göstərə bilər. Zəngəzur dəhlizinin açılması ilə Türkiyənin Mərkəzi Asiya ilə ticarət üçün yeni alternativ və qısa yol qazanması Tehranı narahat edir.

Təbii ki, hər bir ölkə strateji maraqlarını təmin etmək üçün suveren hüquqa malikdir. Milli maraqlarının əhatə dairəsini də müəyyənləşdirməkdə müstəqildir. Amma heç kimin inkar edə bilməyəcəyi reallıq da var. Reallıq isə budur ki, Azərbaycanın Zəngəzur dəhlizinin fəaliyyətə başlamasını özünün təbii hüquqları sayır və tarixi-siyasi, eyni zamanda, iqtisadi şərait də bunu zəruri edir. Ermənistanın İran faktorundan istifadə edərək, layihəyə qarşı çıxması öz ayağına güllə vurmaqdır. Hətta erməni saytlarında belə xəbərlər dolaşır ki,guya, İran Zəngəzur dəhlizi məsələsində Rusiyadan kömək istəyir. Belə ki, etnik mənşəyi hələ də dəqiq açıqlanmayan, amma hər çıxışında ermənilərə "sevgisini" izhar etməyi unutmayan Abbas Cuma adlı jurnalist-ekspert iddia edir ki, Tehran Zəngəzur dəhlizi məsələsində Moskvanın dəstəyinə ümid edir. "Bu, başqa məsələdir ki, Rusiya bunun həllində iştirak edib-etməyəcək. Moskvanın bu münaqişəni hansısa yolla həll etmək üçün konkret nə etməyə hazır olduğu aydın deyil". A.Cuma düşünür ki, Rusiyanın bu məsələdə mövqeyini qiymətləndirmək çətindir, çünki onun başqa narahatlıqları və problemləri var.

Burada məntiqi sual ortaya çıxır: hansı ölkə fayda gətirən layihəyə üz çevirər? Yuxarıda Zəngəzur dəhlizinin Rusiyaya verəcəyi faydaları sadalamışıq. Belə bir məlumatı informasiyaya məkanına atmaqla ermənilər sanki göstərməyə çalışırlar ki, Zəngəzur dəhlizinə direniş məsələsində tək deyillər. Rusiyanın hazırkı vəziyyətdə alternativ nəqliyyat dəhlizlərinin fəaliyyət göstərməsində həddən artıq maraqlıdır. Buna görə də, Moskvanın Zəngəzur layihəsinə qarşı çıxanlara hər hansı bir dəstək verəcəyi inandırıcı görünmür. Rusiya da gözəl bilir ki, Zəngəzur dəhlizi Ermənistana iqtisadi təcriddən çıxmağa, Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinə çıxış əldə etməyə, Azərbaycan və Türkiyə ilə ticari-iqtisadi münasibətlər qurmağa, nəhayət, tranzit ölkə olmağa, o cümlədən Mərkəzi Asiya respublikalarından və Azərbaycandan təbii qaz almağa kömək edəcək. Eyni zamanda, Ermənistana çıxış da daha əlçatan olacaq. Özünün Qafqaz regionunda strateji müttəfiqi elan etdiyi Ermənistanla birbaşa əlaqə qurması Rusiyaya ancaq fayda gətirəcək. Ona görə də, A.Cuma kimi "eskpertlər" informasiya məkanını belə mənasız iddialarla doldurmağa çalışırlar.

Bir daha təkrarlayırıq: Zəngəzur dəhlizinin İranın Ermənistan ilə sərhədini kəsməsi kimi qələmə verilməsi kökündən yanlış olmaqla yanaşı, həm də reallıqdan uzaqdır. Bu dəhliz, əksinə, regional ölkələri arasında əlaqələri daha da dərinləşdirən və regional əməkdaşlıq üçün yeni perspektivlər vəd edən önəmli bir layihədir. Buna görə də, onun həyata keçirilməsi bütün regional dövlətlərin maraqlarına cavab verir və bu məsələdə müxtəlif geosiyasi insinuasiyalara qapılmaq faydasızdır.

***S.ELAY***
***XQ***

# Heydər Əliyev dərsləri



(əvvəli qəzetin ötən saylarında)

### "MDB-nin xarici sərhədləri nə olan şeydir?"

Ümummilli lider Rusiya tərəfinin dəfələrlə müxtəlif bəhanələrlə öz hərbçilərini Azərbaycan ərazisinə yerləşdirmək cəhdlərinin qarşısını məharətlə almışdı. (Cenevrə demokratiya quruculuğu institutunun media dəstəyi layihəsi çərçivəsində Bakıda keçirdiyi konfransda iştirak edən Gürcüstan və Ermənistan jurnalistləri ilə görüşdəki söhbətində bəzi məqamlara aydınlıq gətirmişdi.

**Vigen Çeteryan (İsveçrə):** Cənab Prezident, mən Cenevrədənəm, sualı ingiliscə vermək istəyirəm. Siz istərdinizmi ki, NATO-nun Azərbaycanda bazası olsun? Necə bilirsiniz, bu bazalar Azərbaycanın gələcək təhlükəsizliyinə kömək edəcəkmi?

**Heydər Əliyev:** Bəs siz istəyirsinizmi ki, Azərbaycanda NATO-nun bazaları olsun?

**Jurnalist:** Təəssüf ki, bu barədə öz mövqeyimi hələlik açıqlamaq istəməzdim.

**Heydər Əliyev:** Bilirsiz, Azərbaycan, görünür, onunla fərqlənir ki, müstəqillik əldə etdiyi vaxtdan bəri bu müstəqilliyi tam həcmdə həyata keçirir. Azərbaycanda xarici qoşunlar, xarici hərbi bazalar yoxdur. Hərçənd Rusiya tərəfindən cəhdlər olmuşdur. Məsələn, Rusiya sərhəd qoşunlarının komandanı general Nikolayev vardı, o, 2-3 il buna çalışdı, buraya gəlib-gedir və deyirdi ki, bilirsinizmi, gəlin, İranla sərhədi birlikdə qoruyaq. Soruşuram: Niyə? O deyir: Bilirsinizmi, oradan hansısa cinayətkarlar, casuslar, başqaları gəlir, biz MDB-ni qorumalıyıq. Mən deyirəm: MDB ittifaqdır, burada hər bir dövlət öz sərhədlərini qoruyur və beləliklə, biz MDB məkanını da qoruyuruq. Onların hətta belə bir termini var, – hüquqşünas kimi sizin hüquqla əlaqəniz var, – MDB-nin xarici sərhədləri. MDB-nin xarici sərhədləri nə olan şeydir? Mən dedim: Mənə izahat verin – MDB-nin xarici sərhədləri nə olan şeydir? Sən demə, Ermənistanda Türkiyə ilə sərhədi Ermənistan sərhədçiləri ilə yanaşı, Rusiya sərhədçiləri də qoruyurlar və bu, MDB-nin xarici sərhədləri adlanır. Mən deyirəm: Müsaidənizlə, bax, Avropa Birliyi var, o, hətta müstəqil Dövlətlər Birliyindən də sıx birlikdir. Nədir, onların orada xarici sərhədi var? Avropa Birliyində bəlkə də üstün mövqe tutan bir ölkə kimi Almaniya deyir ki, bilirsinizmi, gəlin, Çexiyanın sərhədini də, İtaliyanın sərhədini də birgə qoruyaq? Xeyr. Başa düşürsünüzmü, bu anlaşılmazlıqdır, cəfəngiyyatdır. Amma di gəl ki, belə fikirlər geniş yayılmışdır. Buna görə də o, buraya gəlir, bizə deyirdi ki, bilirsinizmi, gəlin biz sizinlə MDB-nin xarici sərhədlərini qoruyaq. Mən ona dedim: Bilirsiniz, siz öz sərhədinizi etibarlı surətdə qorumağa çalışın, biz isə öz sərhədimizi bacardığımız kimi qoruyacağıq.

### "Çox şey itirdilər"

**Heydər Əliyev Ermənistanın nəhəng enerji layihələrindən kənarda qalmasını ermənilərin öz günahı ucbatından baş verdiyini bildirmişdi:**

– Bakı–Tbilisi–Ceyhan müqaviləsi qəti şəkildə imzalanmışdır. Onun Türkiyə üçün əhəmiyyəti var, Gürcüstan üçün əhəmiyyəti var. Onlar tranzitdən böyük mənfəət götürəcəklər. Elə həmin Bakı–Ceyhan layihəsi ilə əlaqədar olduqca çoxlu şirkət müraciət edir və bu neft kəmərinin inşasına qoşulmağı xahiş edirlər, çünki onun dəyəri 2 milyard 400 milyon dollardır. Yeri gəlmişkən, biz vaxtilə ermənilərə təklif etdik: gəlin, neft kəmərini Türkiyəyə Gürcüstandan deyil, Ermənistandan çəkək. Amma onlar məsələni həll etməkdən boyun qaçırdılar və çox şey itirdilər, çünki münaqişəyə əvvəl-axır son qoyulacaqdır.

### "Heç nə vəd etmirəm"

**1993-cü ildə Milli Məclisin Sədri seçildikdən sonra bəzi deputatların Heydər Əliyevin nələr vəd etmək istəyi barədə suallarına onun münasibəti birmənalı olmuşdu.**

**Sual:** Bu gün bütün Azərbaycanın taleyi Sizin əlinizdədir. Çox ağır yük deyilmi?

**Cavab:** Bir daha demək istəyirəm ki, bugünkü vəzifəni tutmaq arzusunda deyildim. Hakimiyyətin ləzzətini görmüşəm – düşünüldüyü qədər şirin deyil. Bəzilərinə elə gəlir ki, yenidən bu ləzzəti dadmaq istəmişəm. İstəmirəm. Hakimiyyətdən çəkilməyə də hazıram. Lakin bu gün adamlar mənə baxırlar. Özü də ümidlə baxırlar. Hərçənd mən o adamlardan deyiləm ki, deyəm: Siz məni seçin, dərhal müharibəni qurtarım və yarım ildən sonra yağ-bal içində yaşayacaqsınız, – yox! Mən Elçibəy deyiləm. Milli Məclisin – bizim Ali Sovetin deputatları məndən soruşurlar ki, bizə nə vəd edirsiniz? Birmənalı cavab verdim: Heç nə! Mən peyğəmbər deyiləm və sabah nə olacağını da bilmirəm. Bəlkə daha da pis olacaq. Lakin bir şeyi bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək – adamlara xəyanət etmək deməkdir.

### "Bu bina cinayətkarlar yuvasına döndü"

**Müstəqilliyin ilk illərində özbaşınalıq və hərc-mərclik ölkənin bütün orqanlarına sirayət etmişdi. Bu baxımdan, Daxili İşlər Nazirliyi də istisna olmamışdı. Daxili İşlər Nazirliyinin kollektivi ilə görüşdə ulu öndər həmin dövrdə baş verənləri belə xatırlamışdı:**

– Dünyanın heç bir ölkəsində, o cümlədən, demokratiya nöqteyi-nəzərindən, dövlətçilik baxımından ən inkişaf etmiş ölkələrdə polis orqanları siyasətə qoşulmur, siyasətdən kənarda durur, heç bir siyasi tədbirdə, siyasi proseslərdə iştirak edə bilməzlər: Onlar dövlətə xidmət edir, dövlətin möhkəmlənməsinə, dövlət orqanlarının fəaliyyətinin təmin olunmasına xidmət edirlər. Bu, Amerikada da belədir, İngiltərədə də, Fransada da, Türkiyədə də, İranda da və başqa ölkələrdə də. Lakin yadınıza salın, bu binanın divarları içərisində nə kimi çirkin əhval-ruhiyyə, hallar meydana çıxdı. Buraya gəlmiş, polis işini bilməyən adam, peşə hazırlığı olmayan adam və mənəviyyatca pozğun mövqelərdə duran adamlar burada cürbəcür təşkilatlar yaradıblar – "Boz qurd" təşkilatı, "Boz qurd" fəxri adı...

Bu bina, bu orqan Azərbaycanda dövləti qorumaq əvəzinə, dövlətə xidmət etmək, ictimai asayişi qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaq əvəzinə, bəzən cinayətkarlar yuvasına döndü, burada cürbəcür siyasi proseslər və sizə deyə bilərəm ki, çox primitiv səviyyədə, mədəniyyətdən kənar səviyyədə siyasi proseslər meydana çıxdı. Təəssüf ki, Azərbaycanın o vaxt ümumi mühiti elə idi ki, onlar bizim informasiya orqanları tərəfindən təbliğ edilirdi, hətta bəzi adamlar tərəfindən böyük ruh yüksəkliyi ilə qəbul olunurdu. Şübhəsiz ki, onlar da elə o səviyyədə olan adamlar idi. Mən Türkiyənin dövlət rəhbərləri ilə dəfələrlə söhbət aparmışam. "Boz qurd", ümumiyyətlə, Türkiyədə meydana gəlmiş bir hərəkatdır. Şübhəsiz ki, biz demokratik prinsiplərə riayət edərək heç bir ictimai-siyasi hərəkatın meydana gəlməsinə etiraz etməmişik və etiraz etmirik. Ancaq "Boz qurd"un məkanı, vətəni olan Türkiyədə heç vaxt polis "Boz qurd"a qoşulmayıbdır. Polis orqanlarında "Boz qurd" heç bir fəaliyyət göstərməyibdir. İndi görün nə qədər iyrənc, dəhşətli və gülməli haldır ki, burada Daxili İşlər naziri özbaşına belə bir fəxri ad müəyyənləşdirib. Yaxşı polis işçisinin ən yüksək fəxri adı "Boz qurd" adı idi. Bu, nə qədər əcaibdir!

### "Ürəyim dağa döndü"

**Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərin dünyanın qabaqcıl ali təhsil ocaqlarında təhsil almasına xüsusi qayğı göstərmişdir. O, müstəqillik dövründə bu ənənənin davam etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırdı:**

– Xatirimdədir. Moskvada təhsil alan azərbaycanlı gənclərlə bir neçə dəfə görüş keçirmişdik. Belə görüşlərdən biri MXAT-ın binasında olmuşdu. O vaxtkı ali təhsil naziri, şəhərin rəhbərləri, Moskvadakı bütün institutların rektorları, tanınmış professorlar oraya toplaşmışdı. Salon ağzınadək dolu idi. Orada Cəbrayıl rayonunun dağ kəndindən olan bir gənc – adı yadımda deyil, Moskva Universitetinin humanitar fakültələrindən birinin 4-cü kursunun əlaçı tələbəsi idi, – rus dilində çıxış edəndə ürəyim dağa döndü. Biz bu yoldan da istifadə etmişik və güman edirəm ki, düz etmişik. Bundan sonra da bu yollardan istifadə etmək lazımdır. Amma indi, təsəvvür edin, Moskvada universitetdə tələbə oxutmaq üçün nə qədər pul verməк lazımdır. Sankt-Peterburq Universitetində də, həmçinin. Bunu bilirsinizmi? Amma o vaxtlar pul vermək söhbəti yox idi, əksinə, təhsil almağa göndərilən azərbaycanlı tələbələr təqaüd alırdılar. Bundan əlavə, onlara maddi yardım da göstərilirdi.

Bu mütəxəssislər bizim üçün dəyərli mütəxəssislərdir. Təəssüf ki, həmin ali məktəblərdə təhsil almış mütəxəssislərdən son illərdə səmərəli istifadə olunmadı, onlar dağılıb hərə bir tərəfə getdi, qoyduğumuz ənənə də müəyyən qədər pozuldu. Biz indi başqa şəraitdə yaşayırıq. Gənclərimizi xaricə – Londona da, Amerikaya da, Türkiyəyə də, Şərq ölkələrinə, Moskvaya, Sankt-Peterburqa da göndərməliyik. Beləliklə də gənclərimizin təhsil diapazonunu, müxtəlif sahələrdə mütəxəssislər hazırlanmasının diapazonunu genişləndirəcəyik və müstəqil Azərbaycan üçün yeni intellektual nəsil yetişdirəcəyik. Bunu etməliyik, bu bizim vəzifəmizdir

### "Müəllim adı yüksək addır"

**Azərbaycanda hörmət əlaməti olaraq adamların biri-birinə "müəllim" deyə müraciət etməsinin səbəbini ulu öndər Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə belə əsaslandırmışdı:**

– Məktəb, müəllimlər həmişə xalq, insanlar arasında, ictimaiyyətdə hörmət, ehtiram qazanmışlar və buna layiq olmuşlar. Müəllim adı yüksək addır. Azərbaycanda müəllimə daim böyük hörmət olmuşdur. Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur. Heç də təsadüfi deyildir ki, dilimizdə insanların bir-birinə müraciət formasında "müəllim" sözü şəxslərin müəllim olub-olmamasından asılı olmayaraq istifadə edilib. Bizdə bu ənənə çoxdan yaranıb və hamı bir-birinə müraciət edərkən qarşısındakı şəxsə hörmət və ehtiram əlaməti olaraq "müəllim" deyir. Çoxları heç müəllim deyil, amma biz bir-birimizə müraciət edərkən "ağa", "cənab", "bəy" deyil, "müəllim" deyirik. Bu, təsadüfi deyil. Bəlkə də başqa xalqlarda belə müraciət forması yoxdur. Bu, ondan irəli gəlir ki, xalqımız savadsızlıqdan, gerilikdən, ətalətdən bugünkü günə qısa tarixi bir müddətdə gəlib çatmaqda müəllimlərin rolunu qiymətləndirir və qarşısındakı adama hörmət əlaməti olaraq "müəllim" deyir. Ona görə də müəllimin cəmiyyətdə xüsusi yeri olduğu artıq heç kəsdə şübhə oyatmır. Müəllimə hörmət, ehtiram həmişə olub, bu gün də var, gələcəkdə də olmalıdır.

(ardı var)

*Faiq SADIQOV,*
*Əməkdar jurnalist*

# AMEA-nın yubiley nəşrləri

**"Heydər Əliyev İli" çərçivəsində AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin alimləri tərəfindən görkəmli dövlət xadiminin zəngin irsinə həsr olunmuş genişmiqyaslı tədqiqatlar aparılıb və hər biri fundamental monoqrafik əsər olmaqla, 29 kitab işıq üzü görüb.**

Bu barədə XQ-yə AMEA-dan məlumat verilib. Bildirilib ki, cari ilin sonuna kimi ümumilikdə bu istiqamətdə 40-a yaxın nəşrin çapı nəzərdə tutulur. Ərsəyə gətirilmiş əsərlər dekabr ayında AMEA-da "Heydər Əliyev İli"nə həsr olunmuş Rəyasət Heyətinin genişləndirilmiş iclasında geniş ictimaiyyətə təqdim olunacaq.

XQ



# Kazanda ulu öndərə həsr olunmuş fotosərgi



**XIX Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalı çərçivəsində ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb.**

Bundan əlavə, "Mir" kinoteatrında "Heydər Əliyev – əfsanə insan" sənədli filmi (CBC TV-nin istehsalı) "Festivalın xüsusi tədbiri" kimi nümayiş etdirilib.

Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Festivalın xüsusi tədbiri"nin açılışında festivalın icraçı direktoru, "Tatarkino"nun rəhbəri Milyauşa Aytuqanova, kinofestivalın münsiflər heyətinin üzvü, azərbaycanlı rejissor və prodüser Fariz Əhmədov, Tatarıstan Azərbaycan Milli Mədəni Muxtariyyətinin regional ictimai təşkilatının sədri Bəhram Mustafayev və digər rəsmi şəxslər iştirak ediblər.

XQ

# İrəvan eyni vaxtda bir neçə stulda əyləşmək siyasətini davam etdirir

## Ermənistan–ABŞ hərbi təlimləri bunun bariz nümunəsidir



**Ermənistanın təhlükəsizlik arxitekturasının ümumi mənzərəsinə baxdıqda orada maraqlı proseslərin getdiyinin şahidi olarıq. Bu mənzərədə xüsusilə son bir neçə gün ərzində baş verən dəyişikliklər dərhal diqqəti cəlb edir. Həmçinin Ermənistanın üzvü olduğu və 2020-ci ilədək çox güvəndiyi, Azərbaycanı hədələdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə münasibətlərində problemlər yaşanır.**

Bu çərçivədə, ilk növbədə, Ermənistanın təşkilatdakı daimi nümayəndəsi Viktor Biyaqovun vəzifəsindən geri çağırılmasını qeyd etmək lazımdır. Belə ki, baş nazir Nikol Paşinyanın təklifi və prezident Vaaqn Xaçaturyanın fərmanı ilə V. Biyaqov Ermənistanın KTMT-dəki daimi və səlahiyyətli nümayəndəsi vəzifəsindən geri çağırılıb. Əlbəttə, bu, rotasiya qaydasında bir prosedur kimi nəzərdən keçirilə bilərdi. Ancaq onun yenə Paşinyanın təklifi ilə prezident Xaçaturyan tərəfindən Ermənistan Respublikasının iqamətgahı Avropanın mərkəzində – Haaqada yerləşən Kimyəvi Silahların Qadağan Edilməsi Təşkilatı yanında daimi nümayəndəsi təyin olunması çox şeydən xəbər verir. Nüvəsində Qərblə kəskin qarşıdurma şəraitində olan Rusiyanın dayandığı KTMT-də çalışan, mühüm məlumatlara malik olan diplomatın Avropanın mərkəzinə göndərilməsi Ermənistanın Rusiya ilə münasibətləri baxımından da vacib faktordur. Bu, eyni zamanda, Rusiyanın və KTMT-yə üzv digər ölkələrin (Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan) milli təhlükəsizlik məsələsidir. Görünür, İrəvanda belə ciddi siyasi və təhlükəsizlik məsələsinə barmaqarası yanaşırlar.

Ermənistan–KTMT münasibətlərində digər diqqətçəkən məqam Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın sentyabrın 5-də növbəti dəfə təşkilatın missiyasının Ermənistanla Azərbaycan arasındakı sərhəd bölgəsində yerləşdirilməsini təklif etməsidir. Moskva bundan öncə də dəfələrlə sözügedən təkliflə çıxış edib. Ancaq Qərbpərəst Paşinyan hökuməti Kremli eşitməkdənsə, Avropa İttifaqının mülki müşahidə missiyasının sərhədyanı bölgəyə gətirilməsini üstün tutdu. Yeri gəlmişkən, nəticə göz önündədir: Ermənistan Aİ-nin missiyasından gözlədiyi nəticəni ala bilmədi, əvəzində Rusiyadan bir qədər də uzaqlaşdı.

M.Zaxarova isə həftəlik mətbuat konfransında deyib: "Biz Ermənistan hərbçilərinin sentyabrın 1-də həlak olması ilə bağlı başsağlığı verir və tərəfləri gərginliyə və daha çox insan tələfatına səbəb olan hərəkətlərdən çəkinməyə çağırırıq. Bu faciəvi hadisə Ermənistanda yerləşən Avropa İttifaqının hərbi missiyasının effektinin aşağı olduğunu bir daha təsdiqlədi".

Onun sözlərinə görə, bir sıra etimad tədbirlərinin həyata keçirilməsi zamanı Rusiyanın məsləhət yardımı ilə Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə müntəzəm ritmik işə diqqət yetirmək lazımdır: "Biz, həmçinin sərhəd bölgəsində KTMT missiyasının yerləşdirilməsinin tərəfdarıyıq və burada, təbii ki, top artıq İrəvanın tərəfindədir. Təşkilatın bütün digər üzvləri bu addımı atmağa hazır olduqlarını bildiriblər".

Əlbəttə, öz ərazisində hansı ölkənin missiyasını yerləşdirmək İrəvanın suveren hüququdur. Ancaq görünən odur ki, Ermənistan hökuməti üzvü olduğu təşkilatın təmsilçilərini ölkə ərazisinə buraxmaq fikrində deyil. Əksinə, Paşinyan iqtidarı sürətlə Rusiyadan uzaqlaşmaq xətti götürüb. Dünən bu istiqamətdə vacib hadisə baş verib. Belə ki, sentyabrın 11-dən 20-dək Ermənistanda erməni-amerikan birgə hərbi təliminin keçiriləcəyi məlum olub. Ermənistan müdafiə nazirliyi bəyan edib ki, beynəlxalq sülhməramlı missiyalarda iştiraka hazırlıq çərçivəsində sülhməramlıların "Zar" təlim mərkəzində "Artsiv Çeştforq-2023" birgə erməni-amerikan hərbi təlimi keçiriləcək. Təlimdə ABŞ Silahlı Qüvvələrinin briqadası, Ermənistan silahlı qüvvələrinin bir qrup şəxsi heyəti iştirak edəcək. Təlimin məqsədi sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələrin qarşılıqlı fəaliyyət səviyyəsini yüksəltmək, idarəetmə və taktiki rabitə sahəsində qabaqcıl təcrübə mübadiləsi aparmaq, o cümlədən Ermənistan hərbi bölməsinin planlaşdırılmış əməliyyatlara hazırlığını artırmaqdır.

ABŞ Müdafiə Nazirliyinin açıqlamasında isə deyilir ki, bu təşəbbüs xüsusi sülhməramlı əməliyyatlar təlimi vasitəsilə qarşılıqlı fəaliyyətin və hazırlığın gücləndirilməsinə diqqət yetirməklə Ermənistanla müttəfiqliyi gücləndirmək məqsədi daşıyır. Amerika tərəfi təlimdə 85 amerikalı və 175 erməni hərbçinin iştirak edəcəyini açıqlayıb.

Ermənistan–ABŞ təliminə Moskvanın reaksiyası özünü çox gözlətməyib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov dünən bildirib ki, Ermənistan ərazisində erməni-amerikan birgə hərbi təlimləri barədə məlumat sayıqlıq tələb edir. "Təbii ki, bu cür xəbərlər xüsusilə indiki vəziyyətdə sayıqlıq tələb edir. Ona görə də xəbərləri dərindən təhlil edəcəyik və vəziyyətin inkişafını izləyəcəyik", – deyə o bildirib.

Göründüyü kimi, Ermənistan bir tərəfdən KTMT-nin üzvü olaraq qalır, digər tərəfdən ərazisində onun əsas rəqibi olan ölkə ilə – ABŞ-la birgə hərbi təlim keçirir. Paşinyan bununla Qərbə daha yaxın olduğunu, Rusiya ilə bağlarını qopardığını göstərmək istəyir. Lakin Ermənistan nə KTMT-dən, nə Avrasiya İqtisadi İttifaqı və Gömrük İttifaqından çıxır, nə də Rusiya ilə ikitərəfli hərbi-siyasi müttəfiqliyə xitam verir. Bu isə İrəvanın əvvəlki kimi eyni vaxtda bir neçə stulda əyləşmək istədiyindən xəbər verir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

– Ermənistanın KTMT-nin üzvü olmasına rəğmən, ABŞ Silahlı Qüvvələri ilə birgə təlimlər keçirməsində təəccüblü heç nə yoxdur. Yaxın keçmişə baxsaq, biz Paşinyanın Qərbyönlü siyasət apardığını və bunu gizlətmədiyini görə bilərik. Hakimiyyətə gəldiyi gündən onun, necə deyərlər, üzü Rusiyadan dönmüşdü, Qərbə tərəf idi. İrəvanın siyasətinin yol xəritəsi məhz Qərbə doğru istiqamətlənib.

NATO-nun Genişlənmə üzrə Avropa Komitəsinin sədri Günter Fellingerin Ermənistanı Şimali Atlantika Alyansına qoşulmağa çağırması da, əslində, Rusiya əleyhinə atılan addımdır. Demək istəyirəm ki, Rusiyaya qarşı olan qüvvələr bu gün Ermənistan siyasətinə müdaxilə edərək, Moskvanın regiondakı maraqlarını məhdudlaşdırmağa çalışırlar. Hətta strateji plan olan Rusiya hərbi bazasının Ermənistandan çıxarılması istiqamətində addımlar atılır. Ermənistan–Amerika hərbi təlimlərinin arxasında hansı proseslərin gedəcəyi haqqında da dərindən düşünmək lazım deyil. Hər şey aydındır. Təbii ki, Ermənistanda gedən bütün proseslər, ilk növbədə, bu ölkənin təhlükəsizliyi ilə yox, Rusiyanın buradan xaric olunması mexanizmlərinin işlənilməsi və yollarının tapılması ilə bağlıdır.

Belə olan təqdirdə biz deyə bilərik ki, Rusiyaya qarşı olan Qərb adlanan güc mənbəyi bu gün Ermənistanın xarici siyasətinin istiqamətini müəyyənləşdirir. Ermənistan rəhbərliyi heç vaxt müstəqil olmayıb, müəyyən qüvvələrin əlində alət olub və həmin siyasət bu gün də davam edir. Ona görə də bu gün Paşinyanın bir söz deməsi, sabah başqa fikirlər səsləndirməsi artıq heç kəs üçün təəccüblü deyil. Bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin müstəqil olmadığının, sifarişlər yerinə yetirdiyinin və bununla əlaqədər manipulyasiyalar etməsinin göstəricisidir.

# Hikmət Hacıyev: Ağdam–Xankəndi yolunun logistik imkanları daha böyükdür

*(əvvəli 1-ci səhifədə)*




Ağdam–Xankəndi yolunun açılmasının inteqrasiyanı təmin edəcəyini və bununla da Azərbaycanın Xankəndi və Qarabağ erməniləri ilə birbaşa əlaqəsinin olacağını, ermənilərin də Azərbaycanın digər bölgələrinə getmək üçün ölkəmizin əsas yol sistemindən istifadə etmək şansı qazanacaqlarını diqqətə çatdıran Hikmət Hacıyev bildirib: "Təəssüf ki, Azərbaycanın həmin ərazilərindəki erməni marionet rejiminin başında duran şəxslər dünyada yalan təbliğat və dezinformasiya aparmaqla humanitar vəziyyətdən öz mənafeləri – Azərbaycanın suverenliyini qəbul etməyən separatçı qurumun varlığını uzatmaq üçün istifadə edirlər. Bu, həmişə onların mövcudiyyət səbəbi olub. Biz onları dialoqa dəvət etdik. Amma onlar dialoqa yox deyirlər. Bu, dağıdıcı münasibətdir. Onlar, həmçinin Azərbaycandan gələn ərzaq məhsullarını qəbul etmirlər. Bu, irqçilikdir. Qida məhsulunu mənşəyinə görə qəbul etməyəcəklərini bildiriblər".

Prezidentin köməkçisi üçtərəfli Bəyanatın imzalanmasından sonrakı müddətdə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə hərbi sursat, canlı qüvvə və minaların daşınması üçün Laçın yolundan istifadə etdiyini xatırladaraq, Azərbaycan hökumətinin bunun qarşısını almaq üçün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsini yaratmağa məcbur olduğunu vurğulayıb: "Azərbaycan suveren ərazilərində daha bir boz zonanın olmasına imkan verə bilməz. Mənim sualım belədir: Niyə qanunsuz Ermənistan rejimi bu ikinci yolun açılmasına müqavimət göstərir? Onlar hələ də beynəlxalq ictimaiyyətin baxışını manipulyasiya edirlər. Yol sivilizasiyadır. Yol mədəniyyətdir. Yola yox deməyin irqçilik elementi var. Bu, dağıdıcı siyasətdir. İşğal vaxtı keçmişdə qalıb".

Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun qərəzli rəyi ilə bağlı suala cavabda Hikmət Hacıyev bildirib ki, Okampo öz rəyində Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı və törətdiyi hərbi cinayətlər, ölkəmizin 8 şəhərinin tamamilə dağıdılması, Xocalı soyqırımına toxunmur.

Bildirilib ki, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya əsasən, Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsində Ermənistana qarşı çox ciddi məsələ qaldırdı. Ermənistanda "azərbaycanlı" və ya "türk" sözləri təhqir kimi işlədilir. Bu, erməni cəmiyyətindəki əsas düşüncə haqqında çox şey deyir. Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın mədəni, dini və hətta bəşəri irsinin bütün nümunələrini məhv edib. Ona görə də bəzi beynəlxalq media orqanlarının Ermənistanın siyasi təbliğatının tələsinə düşməsi təəssüf doğurur.

Sülh müqaviləsi üzrə proses barədə məlumat verən Prezidentin köməkçisi bildirib: "Azərbaycan, həqiqətən, sülh müqaviləsi imzalamaq, regionda qarşıdurma və şiddət səhifəsini çevirmək istəyir. Biz sülh içində yaşamaq istəyirik. Amma top Ermənistan meydançasındadır. Bu reallığı nə qədər tez başa düşsələr, hamı üçün bir o qədər yaxşı olar. Ermənistanın Azərbaycana qarşı çirkin təbliğatı bizi Vaşinqtonun təqdim etdiyi və çox yüksək qiymətləndirdiyimiz platformada sülh müqaviləsi üzrə danışıqlar yolundan çıxardı.

Biz çox mühüm irəliləyiş əldə etmişdik. Sənədin demək olar ki, 70 faizi təmizlənmişdi, müəyyən mənada razılaşmışdıq. Sülh müqaviləsinin imzalanması Cənubi Qafqaz regionunun mənzərəsini tamamilə dəyişəcək. Ermənistanın baş naziri bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü tanıyır, digər tərəfdən isə Ermənistan silahlı qüvvələrini hələ də bizim ərazimizdə saxlayır. Ermənistan hələ də ərazimizdəki qanunsuz rejimi maliyyələşdirir".

Cənubi Qafqaz regionunda böyük güclər arasında geosiyasi rəqabətin elementlərinin göründüyünü vurğulayan Hikmət Hacıyev bu barədə qeyd edib: "Böyük güclərə mesajımız budur: daxili siyasi gündəminizi bizim regiona ixrac etməyin. Biz, həmçinin görürük ki, Ermənistan regionumuzda başqa bir Suriyaya çevrilir, çünki o, böyük dövlətlərin geosiyasi maraqlarına görə onların arasında bölüşdürülür. Oradakı Avropa İttifaqının missiyası fəaliyyət göstərir. Bizə dedilər ki, bu, qısamüddətli mülki missiyadır, ancaq uzunmüddətli oldu. Onun hərbi personalı var. Diplomatik avantürizm və təbliğat əvəzinə, regionda sülhə və təhlükəsizliyə töhfə vermək istəyən hər kəs Ermənistan–Azərbaycan sülh danışıqlarına ciddi dəstək verməlidir".

Bu baxımdan müxtəlif platformaların olduğunu vurğulayan Prezidentin köməkçisi qeyd edib ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən dəstəklənən Brüssel prosesi çox yüksək qiymətləndirilir. Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların mühüm elementləri həmin platformada formalaşıb. Hikmət Hacıyev ABŞ hökumətini, xüsusən də dövlət katibi Entoni Blinkenin sülh müqaviləsi müzakirələrində şəxsi iştirakını yüksək qiymətləndirib, Rusiyanın da regionun bir hissəsi və həm Ermənistan, həm də Azərbaycan ilə tarixi əlaqələri olan ölkə kimi prosesə töhfə verdiyini bildirib.

Barışığın münaqişədən sonrakı vəziyyətin ən çətin hissələrindən biri olduğunu diqqətə çatdıran Prezidentin köməkçisi qeyd edib: "Azərbaycanda yüz minlərlə ailə yaxınlarını itirib, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Təsəvvür edin, insanlar öz evlərinə qayıdıb onların tam xarabalığa çevrildiyini görürlər. Bu, asan deyil və onlar cavab axtarırlar. Cavab yoxdur, çünki Ermənistan tərəfdən heç kimin "Bizi bağışlayın, bütün səhvlərimizə görə üzr istəyirik" deməyə cəsarəti çatmayıb. Ermənistanda Azərbaycana qarşı bədnam əməllər törədən şəxslərə qarşı bir dənə də olsun cinayət işi açılmayıb. İnsanlara ədalətin gətirilməsi də müsbət siqnal verə bilər.

Hesab edirəm ki, barışıq mümkündür, amma bu, əlbəttə ki, vaxt aparacaq. Ermənistan tərəfdən çox şey asılıdır. Mən Ermənistandakı bütün məktəb kitablarını və dərsliklərini də diqqətlə öyrənmişəm. Hər şey qonşularına qarşı nifrət, nifrət və nifrətdir və bu, ermənilərin müstəsna üstünlüyüdür. Bu irqçi düşüncə tərzi hələ də erməni ədəbiyyatında, mediasında və digər sahələrdə dominantdır...

Ermənistanın baş naziri erməni xalqı və Ermənistan hökuməti adından "Məni bağışlayın" deməyə hazırdırmı? Düşünürəm ki, bu, çox şeyi dəyişə bilər. Ermənistan 4000 azərbaycanlının kütləvi məzarlığı ilə bağlı məlumat verməkdən niyə imtina edir? Qaçqın çadırlarında böyüyən bir milyon azərbaycanlının həyatından qoparılan 30 ilin əvəzini kim ödəyəcək?".

**XQ**

# Bakıda ilk dəfə Fintex Forumu keçirilib

**Dünən Türkiyənin "Fintech Innovation Hub" şirkətinin təşkilatçılığı, Azərbaycan Fintex Assosiasiyası və Türkiyə Ödəniş və Elektron Pul Təşkilatları Birliyinin tərəfdaşlığı ilə Bakıda ilk dəfə Azərbaycan–Türkiyə Fintex Forumu keçirilib.**



Forumun məqsədi Azərbaycan və Türkiyə fintex ekosistemlərinin iştirakçıları arasında işgüzar əlaqələrin gücləndirilməsi, potensial əməkdaşlıq imkanlarının dəyərləndirilməsi, həmçinin iki qardaş ölkə arasında digər sahələrdə olduğu kimi, innovativ maliyyə texnologiyaları sahəsində də səmərəli sinerjinin yaradılmasıdır.

Azərbaycan Fintex Assosiasiyasının İdarə Heyətinin sədri Ruslan Talıbov bildirib ki, cari ilin ilk yarısında dünyada fintex sahəsinə 52 milyard dollar məbləğində investisiya yatırılıb. Hesabat dövründə 2 min 154 sövdələşmə reallaşıb.

Natiq xatırladıb ki, fintex sistemində əhəmiyyətli məsələlərdən biri də onun gətirdiyi risklərdir. Bu risklər nəzərə alınaraq dünyada və regionumuzda addımlar atılır. Azərbaycan və MDB ölkələri bazarları Türkiyə fintexləri üçün kifayət qədər maraq doğurur. Azərbaycan fintexləri Türkiyə, eləcə də MDB ölkələri bazarları üçün xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Mərkəzi Bankının departament direktoru Kəmalə Qurbanova bu il avqustun 1-nə ölkədə dövriyyədə olan ödəniş kartlarının sayının keçən ilin analoji dövrü ilə müqayisədə 20 faiz artaraq 15 milyonu ötdüyünü, hesabat dövründə respublika daxilində bu kartlarla aparılan nağdsız ödənişlərin həcminin 2 dəfə artaraq 24 milyard manata çatdığını qeyd edib. K.Qurbanova daha sonra deyib: "Ölkə daxilində kart ödənişlərində nağdsız dövriyyənin xüsusi çəkisi ötən ilin eyni dövrünə nisbətən 12,3 faiz yüksələrək 53 faizə bərabər olub. Daha bir maraqlı göstərici isə bu gün pos-terminallarda aparılan hər 4 əməliyyatdan birinin mobil telefonlar və ya digər ağıllı cihazlar vasitəsilə reallaşmasıdır. Bu isə Azərbaycan əhalisinin innovasiyalara açıq olduğunu göstərir".

Forumda Azərbaycan Mərkəzi Bankının Beynəlxalq Maliyyə Korporasiyası ilə birlikdə 2024–2028-ci illər üçün fintex strategiyasının hazırlandığı, Türkiyədəki 76 fintex şirkətinin təcrübəsindən yararlanmağın zəririliyi, fintex ekosistemlərinin cari vəziyyəti və inkişaf trendləri kimi məsələr barədə fikirlər səsləndirilib.

**XQ**

# Silahlı Qüvvələrlə bağlı videomateriallar yaymaq yolverilməzdir

**Son günlər teleqram kanallarının Ermənistan xüsusi xidmət orqanları ilə əlaqəli olan seqmentində Azərbaycan Ordusunun hərbi birləşmələri, onların dislokasiyası, yerdəyişmələri, döyüş və səfərbərlik hazırlığı, silahları, hərbi texnikası ilə bağlı videokadrların çəkilib sosial şəbəkələr vasitəsilə yayılmasına təhrik edən çağırışlar yer almaqdadır.**

Dövlət Təhlükəsizliyi bu halları nəzarətə götürüb və analoji hərəkətləri etməyə təşəbbüs göstərən şəxslər barəsində zəruri tədbirlərin görülməsini təmin edəcək. Bu barədə XQ-yə DTX-nin Mətbuat xidmətindən verilən məlumatda bildirilir: "Ölkəmizin milli təhlükəsizliyinə və müdafiə qabiliyyətinə ciddi ziyan vuran, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə aid və dövlət sirri təşkil edən məlumatları özündə ehtiva edən videoçəkilişləri apararaq yaymaq qətiyyən yolverilməzdir və vətəndaşları belə əməlləri etməkdən çəkinməyə çağırırıq".

DTX-nin xəbərdarlığında vurğulanır ki, qeyd olunan hüquqazidd hərəkətlərə qəsdən yol verilməsi dövlət sirrini yayma, bəzi hallarda isə dövlətə xəyanət cinayət əməllərinin törədilməsi şübhəsi üzrə araşdırma predmeti kimi çıxış edir və müvafiq hüquqi məsuliyyət tədbirlərinə səbəb olur.

**XQ**

# Azərbaycan–Çin: “Ortaq yaşıl gələcək”

*(əvvəli 1-ci səhifədə)*

Ölkəmizin bərpaolunan enerji sahəsində zəngin potensialı uzaq Çinə də yaxşı məlumdur. Hazırda Çində ölkəmizlə bu sahədə əməkdaşlıq imkanları nəzərdən keçirilir. Elə Azərbaycanın energetika naziri Pərviz Şahbazov da Çində “Ortaq yaşıl gələcək üçün enerji keçidinin birgə təşviqi” devizi altında keçirilən Beynəlxaq Enerji Keçidi Forumunda onlayn formatda çıxışı zamanı bu barədə ətraflı söhbət açıb. Nazir bildirib ki, ölkəmizin 2030-cu ilə daha 5 qiqavatlıq layihələrin reallaşdırılması ilə bağlı planları var. Onun sözlərinə görə, Azərbaycan 2027-ci ilədək “yaşıl enerji” güclərinin 3 qiqavatdan çoxunun istismara verilməsini planlaşdırır. Bunun da nəticəsində elektrik enerjisi istehsalının gücündə



bərpaolunan enerji mənbələrinin payı 37 faizdən çox olacaq.

Energetika Nazirliyindən verilən məlumata görə, açılış mərasimində çıxış edən nazir enerji keçidinin həyata keçirilməsində siyasi qərarlar qədər iqtisadi və texnoloji reallıqların da mühüm amillərdən olduğunu vurğulayıb. Qeyd olunub ki, hazırkı keçidin məqsədi qısa müddət ərzində dünya iqtisadiyyatının enerji əsaslarını tamamilə dəyişdirməkdir: “Halbuki ilk enerji böhranı göstərdi ki, istənilən uğurlu enerji keçidi enerji trilemmasının təhlükəsizlik, əlçatanlıq və davamlılıqdan ibarət hər üç elementini nəzərə almalıdır.

Enerji keçidini sürətləndirməklə yanaşı, mövcud enerji sisteminə investisiyalara, aydın baxış və möhkəm əməkdaşlığa ehtiyacımız var. Ətraf mühitin mühafizəsini və enerji təhlükəsizliyini təmin edə biləcək ədalətli və inkluziv enerji keçidini dəstəkləməliyik”,– deyə nazir bildirib.

Nazir region və Avropa ölkələrinin enerji təhlükəsizliyində strateji rol oynayan Azərbaycanın emissiyaları azaltmaqla neft-qaz sektorunun inkişafı ilə bərabər, sürətli “yaşıl enerji” kursunu həyata keçirdiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək siyasi iradəsi və aydın strateji baxışının nəticəsi olaraq “yaşıl enerji”nin 2030-cu ilədək ölkəmizin sosial-iqtisadi inkişafında, təmiz ətraf mühitə və “yaşıl artım”a nail olmasında həlledici status qazandığını diqqətə çatdıran nazir qeyd edib ki, hazırda “China Gezhouba Group Overseas Investment” şirkəti də daxil olmaqla beynəlxalq enerji şirkətləri ilə 28 qiqavatdan çox “yaşıl enerji” layihələri üzrə əməkdaşlıq edirik.

Energetika naziri daha sonra bildirib ki, bütün bunlar Azərbaycanın müxtəlif istiqamətlərdə ixracatçıya çevrilməsinə, “Xəzər–Avropa İttifaqı yaşıl enerji dəhlizi” vasitəsilə avropalı tərəfdaşlarımızın enerji təchizatının “yaşıl” elektrik enerjisi, hidrogen ilə şaxələndirilməsinə töhfə verəcək. Nazir, həmçinin “Bir kəmər, bir yol” layihəsinin iştirakçıları, “Orta Dəhliz”in reallaşdırılmasına çalışan tərəfdaşlar, dost ölkələr olan Azərbaycanla Çinin “yaşıl enerji” tərəfdaşlığının daha da genişlənəcəyinə inam ifadə edib.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi nümayəndə heyətinin Çinə səfəri zamanı da bir sıra məsələlərlə yanaşı, ölkəmizin bərpaolunan enerji potensialı və bu sahədə əməkdaşlıq imkanlarının mövcudluğu ilə bağlı fikir mübadiləsi aparılıb. Xatırladaq ki, səfər çərçivəsində M. Cabbarovun Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Linq Ci, sənaye və informasiya texnologiyaları nazirinin müavini Sin Quobin, eləcə də “Envision Energy” şirkətinin vitse-prezidenti Con Li ilə görüşlərində Azərbaycanda “yaşıl enerji” sahəsində reallaşdırılan və perspektiv layihələr barədə məlumat verilib.

Qeyd olunub ki, iki ölkə arasında bir çox sahələrlə yanaşı, alternativ və bərpaolunan enerji sahəsində də birgə fəaliyyət üçün böyük potensial və perspektivlər mövcuddur. O da bildirilib ki, bərpaolunan enerji, o cümlədən külək və günəş enerjisinin istehsalı üçün lokallaşdırma sahəsində birgə layihələrin reallaşdırılması üçün potensial var və bu istiqamətdə işlər davam etdirilir.

Yeri gəlmişkən, ölkəmizin bərpaolunan enerji potensialı dünyanın bir sıra maliyyə qurumlarının da maraq dairəsindədir. Məsələn, Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Cənubi Qafqaz üzrə regional meneceri İvana Fernandes Duarte deyib ki, Azərbaycanla bərpaolunan enerji sahəsində fəaliyyət göstərmək və özəl investisiyalar cəlb etməklə ölkənin bu sahədə yeni səviyyəyə çıxmasına kömək göstərmək üçün yaxşı imkanlar var. Onun sözlərinə görə, IFC və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı dənizdə külək enerjisinin inkişafının yol xəritəsini icra etmək, o cümlədən tərtibatçılar və özəl investorlar cəlb etmək üzərində Azərbaycan hökuməti ilə birgə çalışırlar.

Neft və qaz hasilatında artımın Azərbaycan iqtisadiyyatının möhkəmlənməsində mühüm rol oynadığını vurğulayan regional menecer onu da bildirib ki, enerjinin diversifikasiyası postpandemiya dövründə ölkənin gələcək dayanıqlılığının təmin edilməsinin açarıdır. Onun fikrincə, neft və qazdan şaxələndirməyə keçid dekarbonizasiya üzrə fəaliyyəti sürətləndirməyə kömək etməklə rəqabət qabiliyyətini artıracaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## “AzərEnerji”nin Xətai layihəsi

**Bakı şəhəri Xətai rayonunun sürətlə artan sənaye və sosial obyektlərinin, o cümlədən “Ağ şəhər” kompleksinin elektrik təchizatının etibarlığının və dayanıqlığının yüksəldilməsi, “Bakı” İstilik Elektrik Mərkəzində istehsal olunan enerjinin ötürülməsində məhdudiyyətlərin, həmçinin 110 kV-luq “Əhmədli” və “8-ci kilometr” ötürmə xətlərində ifrat yüklənmənin aradan qaldırılması məqsədi ilə “AzərEnerji” tərəfindən yeni layihənin icrası həyata keçirilir.**



“AzərEnerji” ASC-nin məlumatında daha sonra bildirilir ki, hazırda layihənin icrası üzrə 110 kV-luq “Həzi Aslanov” və “Ağ şəhər” yarımstansiyaları arasında yeraltı ikidövrəli kabel xətlərinin “Bakı” İstilik Elektrik Mərkəzinin 110 kV-luq yarımstansiyasına giriş-çıxış sxemi ilə qoşulması üzrə işlər davam etdirilir. Bu məqsədlə 8 Noyabr prospektində nəqliyyatın hərəkətini dayandırmadan, qismən məhdudlaşdırmaqla işlər aparılır. Prospektdə işlər yekunlaşmaq üzrədir.

Paralel olaraq “Bakı” İstilik Elektrik Mərkəzinin 110 kV-luq yarımstansiyasında yeni avadanlıqlarla komplektləşdirilmiş 2 yuva quraşdırılır. Nəticədə, 110 kV-luq “Əhmədli”, “Həzi Aslanov”, “Ağ şəhər” yarımstansiyaları ilə “Bakı” İstilik Elektik Mərkəzinin enerji halqası yaradılır. Ən əsası isə 8 Noyabr prospektinin estetik görünüşünü gözəlləşdirmək məqsədi ilə “Bakı” İstilik Elektrik Mərkəzi ilə “Həzi Aslanov” yarımstansiyası arasında hazırda mövcud olan yüksək gərginlikli köhnə dayaqlardan ibarət, ümumilikdə, 1,4 kilometr uzunluqda hava xətti sökülərək ləğv ediləcək. Həmin hava xətti yeraltı kabel xəttinə keçiriləcək.

## 8 ayda “Şahdəniz” və AÇG-dən 5,9 milyard dollar əldə olunub

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) bu ilin yanvar–avqust aylarında “Şahdəniz” və “Azəri-Çıraq-Günəşli” layihələrindən əldə etdiyi gəlirləri açıqlayıb.**

Fonddan XQ-yə verilən məlumata görə, hesabat dövründə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağından 1 milyard 183 milyon ABŞ dolları həcmində gəlir əldə olunub ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 35 milyon ABŞ dolları və ya 3,05 faiz çoxdur. Məlumatda qeyd olunur ki, Neft Fonduna daxil olan vəsaitlərin 259,554 milyon ABŞ dolları kondensatın payına düşüb. Bu isə əvvəlki ilin eyni dövrünə nisbətən 69,13 milyon ABŞ dolları və ya 21 faiz azdır.

Cari ilin 8 ayında “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan isə fonda 4 milyard 728 milyon ABŞ dolları məbləğində vəsait daxil olub. Bu isə 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyard 901 milyon ABŞ dolları və yaxud 28,7 faiz azdır. Xatırladaq ki, ötən ilin 8 ayında Neft Fondu AÇG-dən 6 milyard 629 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.

***XQ***

# Azərbaycan düyünü niyə kənardan gətirir?

## Son 1 əsrdə ölkədə çəltik əkini 30 dəfə azalıb



**(əvvəli 1-ci səhifədə)**

Təbii ki, əsas ərzaq mallarından biri və buğdanın əvəzedicisi sayılan düyü qıtlığının qarşısının alınması üçün yeganə yol bu məhsulun istehsalının genişləndirilməsidir. Bununla bağlı bəhs etməzdən əvvəl ölkəmizin düyü idxalındakı vəziyyətinə qısa nəzər salaq. Azərbaycanın Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin ilk yarısında respublikamıza 32 milyon 506 min dollar dəyərində 36 min 430 ton düyü gətirilib. Bu dövrdə 1 ton düyünün orta idxal qiyməti isə 892 dollar təşkil edib. Keçən ilin uyğun dövründə isə 1 ton düyünün orta idxal qiyməti 842 dollar olub. Beləliklə, cari ilin əvvəlindən düyünün orta idxal qiyməti 50 dollar yüksəlib.

Ölkəmizdə düyü istehsalının artırılmasına gəldikdə isə deyə bilərik ki, son illər bu məsələyə xüsusi diqqət yetirilir, çəltikçilik ölkənin ərzaq təhlükəsizliyi zəncirində prioritet istiqamətlərdən biri kimi dəyərləndirilir. Azərbaycanda çəltikçiliyə ənənəvi sahə kimi daim mühüm önəm verilib. Respublikamızda çəltik bitkisi qədimdən becərilib. Ölkəmizin ərazisində keyfiyyəti ilə müxtəlif müsabiqələrdə dəfələrlə fərqlənən “Ağ ənbərbu”, “Vilgəri”, “Yetim”, “Lənkəran sədrisi”, “Ağ qılçıqlı” və digər yerli sortlar becərilib. İqtisadi şəraitlə əlaqədar çəltiyin əkin sahəsi illər üzrə müxtəlif olub. Çəltik sahəsi 1913-cü ildə 47 min hektar, 1927-ci ildə 54 min hektar, 1937-ci ildə 25,3 min hektar,1964-cü ildə 12,3 min hektar təşkil edib, sonradan tərəvəzçiliyin inkişafı ilə əlaqədar 1,8 min hektara qədər azalıb. Yalnız 1995-ci ildən başlayaraq çəltik əkinləri genişləndirilib, 1996-cı ildə 2,4 min hektar sahədə çəltik əkilib, hər hektarın orta məhsuldarlığı 38,7 sentner olub.

Lakin hazırda çəltikçiliyin inkişafı diqqət mərkəzindədir. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu gün çəltik becərilən sahənin hər hektarına görə, fermerlərə 360 manat əkin subsidiyası verilməsi də bunun bariz ifadəsidir. “Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”nın qəbul edilməsi, bu sənədə əsaslanaraq çəltikçilik ənənələrinin yaşadılaraq yeni inkişaf mərhələsinə yüksəldilməsi, düyü ilə özünütəminetmə səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, düyünün idxal asılılığın azaldılması kimi məsələlər də son məqsəddən–istehsalın artırılmasından xəbər verir. Dövlət proqramının icrası nəticəsində 2025-ci ildə çəltiyin əkin sahəsinin (10 min hektara qədər) və məhsuldarlığın (hər hektardan 2,5 dəfədən çox – 40 sentnerə qədər) əhəmiyyətli dərəcədə artırılacağı nəzərdə tutulur.

Çəltikçiliyə dair dövlət proqramı və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində ölkəmizin müxtəlif regionlarında dənli və dənli-paxlalı bitkilərin, o cümlədən çəltikçiliyin inkişaf etdirilməsi ilə bağlı tədbirlər nəzərdə tutulub, bu istiqamətdə müvafiq işlər həyata keçirilib. “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamına əsasən, buğda və çəltik əkini sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına hər hektar üçün 90 manat yardım verilməsi, həmçinin son illər kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən digər tədbirlər istehsalçılarda bu sahəyə marağı gücləndirib.

Respublikamızda çəltikçiliyin inkişafı məqsədilə hazırlanan proqramların icrası ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən də çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlarının yaradılması, introduksiyası, yerli şəraitə adaptasiyası və toxumçuluğunun təşkili istiqamətində tədqiqat işlərinə də başlanılıb. Eyni zamanda, çəltiyin seleksiyası və toxumçuluğuna dair tədqiqat işlərinin aparılması üçün Lənkəran rayonu ərazisində lazımi infrastruktur qurulub. Bütün bunlarla bərabər, çəltikçiliyin geniş yayıldığı ölkələrdən Azərbaycana yüksək məhsuldar toxum sortlarının gətirilməsi də diqqətdə saxlanılıb. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Toxum Fondu tərəfindən Pakistan İslam Respublikasından respublikamıza yeni çəltik sortları gətirilib.

Hazırda Əkinçilik Elmi-Tədqiqat İnstitutunda 2023–2024-cü illər üçün çəltiyin seleksiyasına dair təsdiq olunan mövzu planına əsasən Lənkəran bölgəsində seleksiya tədqiqatları həyata keçirilir. Bu rayonda hər il 1–1,5 hektar sahədə toxumluq məqsədilə “Avanqard” sortunun superelit reproduksiyalı əkini aparılır və 2,5-3 ton elit toxumu istehsal edilərək bölgə fermerlərinə verilir.

Onu da vurğulayaq ki, mövcud sahədə görülən işləri ifadə edən müəyyən rəqəmlərin müqayisəsi də bu sahədə tədrici inkişafa nail olunduğunu göstərir. Məsələn, respublikada ötən ilə qədər çəltik əkini sahəsi 3 min hektar olub, 12 min tona yaxın düyü istehsal olunub. 2022-ci il isə respublikanın 9 rayonunda çəltik əkini aparılıb. Çəltik əkinlərinin ümumi sahəsi 3 min 194 hektar təşkil edib. Həmin vaxt ən çox Lənkəran (802,3 hektar), Ağdaş (681 hektar) və Ucar (678 hektar) rayonlarında çəltik əkilib. Orta məhsuldarlıq hektar üzrə 36,2 sentner təşkil edib. Bu, 2021-ci ilin orta məhsuldarlıq göstəricisindən hektar üzrə 1,4 sentner çox olub. Eyni zamanda, həmin dövrdə respublikada 2021-ci ilə nisbətən 858 ton daha çox məhsul istehsal olunub. Məlumat üçün qeyd edək ki, cari il respublikada 3 min 171 hektarda çəltik əkilib. Ötən il isə həmin göstərici 3 min 129 hektar təşkil edib.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



“Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”nın məqsədi ölkə əhalisinin düyüyə olan tələbatının daha dolğun ödənilməsi, idxalın əvəzlənməsi, çəltik emalı sənayesinin inkişaf etdirilməsi və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə çəltikçilik sahəsinin inkişafını stimullaşdırmaqdan ibarətdir.

Həmin məqsədə nail olunması üçün çəltik əkini sahələrinin genişləndirilməsi və çəltiyin məhsuldarlığının artırılması, çəltikçilik sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yerli və rayonlaşdırılmış sortlarının toxumçuluq təsərrüfatlarının yaradılmasının dəstəklənməsi qarşıya mühüm vəzifə kimi qoyulur.

Bütün bunlarla bərabər, çəltikçiliyin infrastruktur təminatının yaxşılaşdırılması, çəltik istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsi, çəltik emalı müəssisələrinin yaradılmasının, düyü məhsulunun rəqabət qabiliyyətliliyinin artırılması və ixracının təşviqi, həmçinin çəltikçilik sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi məhsul istehsalının artırılması üçün əsas istiqamətlərdir.

“Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nda yerli düyü istehsalının daxili bazarın tələbatının 90 faiz ödənilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Artıq bu istiqamətdə müsbət nəticələr müşahidə olunur. Belə ki, ölkədə bu məhsulun istehsalının artması sayəsində düyü idxalı 2021-ci ildə 18 faiz azalıb.

Düyü əkin sahələrinin artırılması məsələsinə gəlincə, Azərbaycanda bu məqsədlər üçün kifayət qədər ərazi var. Lakin çəltik rütubəti sevən bitkidir və hazırda ölkədə su ehtiyatları ilə bağlı çətin vəziyyət müşahidə olunur. Amma başqa ölkələrin, məsələn, İsrailin təcrübəsini mənimsəyərək yeni suvarma texnologiyaları tətbiq edilsə, çəltik istehsalında daha yüksək göstəricilərin əldə olunması mümkündür.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 307**

**Bakı şəhəri, 5 sentyabr 2023-cü il**

***"İdxalı əlavə dəyər vergisindən azad olunan əsas vəsaitlərin Siyahısı"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respub-likası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İdxalı əlavə dəyər vergisindən azad olunan əsas vəsaitlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahının 71-ci hissəsi bu Qərar tətbiq edildiyi tarixədək ölkəyə gətirilən və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müvəqqəti saxlanc xüsusi proseduru altında yerləşdirilən əsas vəsaitlərə münasibətdə də tətbiq olunur.

**3.** Bu Qərar 2023-cü il 1 yanvar tarixindən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 308**

**Bakı şəhəri, 5 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Tikinti obyektlərinin istismarına icazənin formaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 11 sentyabr tarixli 302 nömrəli, "Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı"nın təsdiq edilməsi haqqında" 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli, "Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 12 yanvar tarixli 6 nömrəli və "Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması Qaydası və müddəti"nin təsdiq edilməsi haqqında" 2022-ci il 21 sentyabr tarixli 362 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 731-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 302 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1126; 2018, № 11, maddə 2445; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 dekabr tarixli 429 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Tikinti obyektinin istismarına icazə" və 2 nömrəli əlavə - "Reklam qurğusunun istismarına icazə" formalarında "Təqdim" sözü "Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 102.1-2-ci maddəsinə uyğun olaraq əldə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1133; 2019, № 5, maddə 948; 2020, № 6, maddə 813; 2022, № 5, maddə 556) ilə təsdiq edilmiş "Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı"na aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Bu siyahının 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sifarişçidən tələb edilmir. Bu sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 58, № 10, maddə 1210; 2016, № 2 (II kitab), maddə 364; 2017, № 3, maddə 515; 2018, № 5, maddə 1138, № 8, maddə 1819; 2019, № 7, maddə 1358, № 12, maddə 2074; 2020, № 6, maddə 812, № 10, maddə 1297; 2021, № 2, maddə 195, № 4, maddə 400) ilə təsdiq edilmiş "Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.8-ci bəndə "təqdim edir" sözlərindən sonra "(bu Qaydaların 1.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.8-1-ci bənd əlavə edilsin:

"1.8-1. Bu Qaydaların 1.8-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sifarişçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 sentyabr tarixli 362 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1096) ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətlən-dirilməsinin aparılması Qaydası və müddəti"nin 4.10-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"4.10. Nəzərdə tutulan fəaliyyətlə bağlı tikintiyə icazə alınması üçün dövlət ekoloji ekspertizası rəyi Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 75.3-1-ci maddəsinə uyğun olaraq tikintiyə icazə verən orqan (qurum) tərəfindən əldə edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 309**

**Bakı şəhəri, 5 sentyabr 2023-cü il**

***M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni avtomobil yolunun 129 kilometrlik hissəsinin ödənişli yol kimi müəyyən edilməsinə dair tədbirlər haqqında***

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 fevral tarixli 3692 nömrəli Sərəncamına əsasən H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni 150 kilometrlik avtomobil yolunun 129 kilometr hissəsi ödənişli yol kimi müəyyən edilsin.

**2.** Avtomobil yolunun ödənişli hissəsinin başlanğıc və son nöqtələri:

2.1. başlanğıc nöqtəsi - M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 52-ci kilometri;

2.2. son nöqtəsi – M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun R-5 Qusar–Xudat avtomobil yolu ilə kəsişməsi.

**3.** Ödənişli avtomobil yolunun uzunluğu – 129 kilometr.

**4.** Ödənişli avtomobil yolunun başqa avtomobil yolları ilə kəsişmələri və birləşmələri:

4.1. M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 75-ci kilometri – Giləzi qəsəbəsi;

4.2. M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 105-ci kilometri – Siyəzən rayonu;

4.3. R-1 Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 1-ci kilometri – Gəndob qəsəbəsi;

4.4. R-4 Quba–Xaçmaz avtomobil yolunun 19-cu kilometri – Xaçmaz rayonu;

4.5. R-5 Qusar–Xudat yolunun 22-ci kilometri – Xaçmaz rayonu.

**5.** Ödənişli avtomobil yolunun texniki göstəriciləri:

5.1. texniki dərəcəsi – I b;

5.2. hərəkət zolaqlarının sayı – 4;

5.3. hərəkət zolağının eni – 3,75 metr;

5.4. yol çiyninin eni – 3,75 metr;

5.5. ayırıcı zolağının eni – 5 metr;

5.6. torpaq yatağının eni – 27,5 metr;

5.7. dayanma zolağının eni – 2,5 metr;

5.8. yol çiyninin bərkidilmiş zolağının eni – 0,75 metr;

5.9. ayırıcı zolaqda bərkidilmiş zolağın eni – 1 metr.

**6.** Alternativ ödənişsiz avtomobil yolunun uzunluğu, marşrutu və əsas texniki göstəriciləri:

6.1. uzunluğu – 142 kilometr;

6.2. M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 52-194-cü kilometrədək olan hissəsi;

6.3. texniki dərəcəsi – 80 kilometr I b dərəcəli, 62 kilometr II dərəcəli;

6.4. hərəkət zolaqlarının sayı – I b dərəcəli yol üzrə 4, II dərəcəli yol üzrə 2;

6.5. hərəkət zolağının eni – 3,75 metr;

6.6. yol çiyninin eni – 3,75 metr;

6.7. ayırıcı zolağının eni – I b dərəcəli yolda 5 metr;

6.8. torpaq yatağının eni – I b dərəcəli yol üzrə 27,5 metr, II dərəcəli yol üzrə 15 metr;

6.9. dayanma zolağının eni – 2,5 metr;

6.10. yol çiyninin bərkidilmiş zolağının eni – 0,75 metr;

6.11. ayırıcı zolaqda bərkidilmiş zolağın eni – I b dərəcəli yolda 1 metr.

**7.** Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası ödənişli avtomobil yolu ilə nəqliyyat vasitəsinin gedişi üçün ödənişin məbləğini avtomobil yolunun dərəcəsi, nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla təsdiq etsin.

**8.** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılsın ki, ödənişli avtomobil yolunda nəqliyyat vasitələrinin gedişinin təşkili ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 310**

**Bakı şəhəri, 6 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" 2014-cü il 7 fevral tarixli 40 nömrəli, "Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədi ilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 4 may tarixli 196 nömrəli və "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı"nın təsdiq edilməsi barədə" 2022-ci il 13 may tarixli 184 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 807-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195; 2015, № 10, maddə 1222; 2016, № 8, maddə 1451; 2018, № 4, maddə 822; 2019, № 12, maddə 2093; 2020, № 8, maddə 1125; 2023, № 4, maddə 590, № 5, maddə 708) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket"in 11.7-1.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "mass media" sözləri "media entities" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 may tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 967; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 278 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədi ilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları"nın 1.8-ci, 2.1-ci və 2.14-cü bəndlərində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin.

**3.** "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 184 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 546) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və mətnində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı"nın adında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 311**

**Bakı şəhəri, 6 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 232 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023 cü il 11 aprel tarixli 2099 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 779; 2020, № 11, maddə 1408; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli 233 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.3.2-ci yarımbəndə "DİN-in kriminalistika xidmətinin əməkdaşı" sözlərindən sonra "(bu Qaydanın 2.3.3-cü yarımbəndində göstərilənlər istisna olmaqla)" sözləri əlavə edilsin.

**2.** 2.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3.3-cü yarımbənd əlavə edilsin:

"2.3.3. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) bioloji material məhkəmə, əməliyyat-axtarış fəaliyyətini, təhqiqat və ya istintaqı həyata keçirən orqanların qərarına əsasən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra – DTX) əməkdaşı tərəfindən.".

**3.** 2.4-cü bəndə "əməkdaşı" sözündən sonra ", Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində aşkar edilmiş naməlum meyitlərin müayinəsi zamanı isə DTX-nin əməkdaşı" sözləri əlavə edilsin.

**4.** 2.9-cu bəndə "DİN Kriminalistik Tədqiqatlar İdarəsinə" sözlərindən sonra "(bu Qaydanın 2.9-1-ci bəndində göstərilənlər istisna olmaqla)" sözləri əlavə edilsin.

**5.** Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərdən müvafiq qaydada götürülmüş bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün DTX-nin Hərbi-tibb baş idarəsinə göndərilir.".

**6.** 2.11.3-cü yarımbənddə "və ya DİN" sözləri ", DİN və ya DTX" sözləri ilə əvəz edilsin.

**7.** 3.1-ci bəndə "İdarəsində" sözündən sonra ", bu Qaydanın 2.9-1-ci bəndində nəzərdə tutulmuş hallarda isə DTX-nin Hərbi-tibb baş idarəsində" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***





# “Zəfər Muzeyi”ndən boy göstərən qəhrəmanlıq

**Azərbaycan Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il sərəncamı ilə yaradılması nəzərdə tutulan “Zəfər Muzeyi” Qarabağda möhtəşəm qələbəmizi xırda detallarına qədər təqdim edən bir xatirə kompleksi olacaq. Hazırda Mədəniyyət Nazirliyinin tapşırığı ilə Azərbaycan İstiqlal Muzeyində yeni zəfər tarixi məkanı üçün eksponatların toplanması davam edir.**

Muzeyə daxil olar-olmaz gözümüz Şeyx Məhəmməd Xiyabaniyə aid olan bir fikrin qeyd olunduğu lövhəyə sataşır: “Müstəqil olmaq istəyən xalq qurban verməyə hazır olmalıdır”. Biz bu hazırlığımızı artıq bütün dünyaya sübut eləmişik. Elə muzeydəki hər bir eksponat məhz bundan soraq verir. Şəhidlərin şəxsi əşyaları canını Vətənə qurban verənlərin əziz yadigarı kimi, müqəddəs tutiya olaraq qorunub saxlanır. Ayrı-ayrı şəhid ailələri qəhrəman soydaşlarımızın əşyalarını bu məkana əmanət edirlər. Bu günə qədər toplanan əşyaların sayı artıq 8 min 700-ə çatıb.

**İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli zəfər eksponatları barədə bizə məlumat verdi:**

– Bu gün qəhrəmanlarımızın istifadə etdiyi əşyaların hər biri şanlı tarixin parçasına çevrilib. Şəhidlərimizin əşyalarının toplanıb komplektləşməsi işinə hər kəs ürəklə girişib. Həmçinin muzeyimiz “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” adlı layihə də həyata keçirir. Bu layihə çərçivəsində hər həftə 7–10 şəhidimizin əşyaları tamaşaçılara nümayiş etdirilir. Zəfər gününədək sərgilərimiz davam edəcək. Məqsədimiz həm şəhidlərin xatirəsinin yaşadılması, həm də gələcək nəsillərdə güclü hərbi-vətənpərvərlik ruhunun aşılanmasıdır.

Onu da qeyd edim ki, həm 1-ci, həm də 2-ci Qarabağ müharibəsi şəhidlərinin əşyalarını toplayırıq. Burada şəhid olmuş mülki vətəndaşlarımızın əşyaları üçün də yer ayırmışıq. Əməkdaşlarımız şəxsən şəhid ailələri ilə görüşərək onların əşyalarını qəbul edirlər. Toplanan yadigarların çeşidlənməsinə xüsusi diqqət yetiririk. Bütün əmanətləri əziz xatirə kimi qorumağa çalışırıq. Polad Həşimova, Xudayar Yusifzadəyə, Rəşad Babayevə aid əşyaları artıq tam komplektləşdirmişik. Fürsətdən istifadə edərək, sizin qəzetiniz vasitəsilə şəhid ailələrinə bildirmək istəyirik ki, əzizlərinin əmanətlərini burada göz bəbəyi kimi qorumağa hazırıq.

**Muzeydə şəhid baş leytenant İlqar Vəliyevin oğlu Vəli Vəliyevlə görüşdük. Atasına aid əşyaların burada nümayiş etdiriləcəyindən qürur duyduğunu söyləyərək dedi:**

– Atam ilk hərbi fəaliyyətinə Tovuzda başlayıb. 1990-cı illərdə bu rayon da ermənilərin intensiv hücumlarına məruz qalırdı. Həmin vaxt hərbi hissədə rabitə-kəşfiyyat işi ilə məşğul olan atam 2-ci Qarabağ savaşında da kənarda qalmayaraq döyüşlərə qatılıb. Doğum günü ərəfəsində bizimlə telefon söhbətində sevinclə bildirmişdi ki, düşməndən bir hərbi hissə azad edilib. Öz ad günündən göndərdiyi video isə atamızla bağlı son xatirə oldu. Oktyabrın 20-də Füzuli–Şuşa istiqamətindəki döyüşlərdə şəhadətə yüksəldi. Ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medallarına layiq görüldü…

**Daha bir şəhidimizin doğması ilə tanış olduq. Bu, Silahlı Qüvvələrimizin kapitanı olmuş Samir Mikayıllının əmisi oğlu Rüfət Sultanov idi. Rüfət də şəhid əzizi ilə bağlı xatirələri bizimlə bölüşdü:**

– Samir 1993-cü ildə Ağcabədidə anadan olub. Yaşadığımız rayon düşmənlə keçmiş təmas xəttinə yaxın olduğundan Samirdə hərb işinə maraq yaranmışdı. O, torpaqlarımızın azad olunmasında iştirak etmək istəyirdi. Bu arzu onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yönəltdi. Sonra Samir təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirdi, ardınca da Türkiyədəki Kara Harb Okuluna daxil oldu. Qardaş ölkədə o Motoatıcı ixtisasına yiyələndi. Vətən müharibəsində əmim oğlu öndə gedən zabitlərdən oldu…

Rüfət Sultanov danışdıqca biz şəhidin buradakı təltiflərinə diqqət etdik. Ondan yadigar qalan hərbi geyim və saat isə S.Mikayıllının barəsində qürur dolu təəssürat yaratdı. Samir Mikayıllı Şuşada qazanılan möhtəşəm zəfərdən bir gün sonra şəhid olub. Ağcabədidə onun adını daşıyan park var. Həmyerliləri Samiri daim hörmətlə yad edirlər.

Muzeylə tanışlıq zamanı orada Cəbrayılda toxunmuş qədim xalçaları da gördük. Sədi Mirseyibli bu əmanətləri azadlığına qovuşmuş Cəbrayıla qaytarmağa hazır olduqlarını diqqətə çatdırdı.

“Zəfər Muzeyi”nin yerləşdiyi müvəqqəti məkandan iftixar duyğuları ilə ayrıldıq. Xalqımızın qəhrəmanlıq tarixinin yadigarlarının toplanması kimi savab iş görən muzey əməkdaşlarına bundan sonrakı fəaliyyətlərində də uğurlar arzu edirik.

***Ceyhun MİRZƏLİ,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Güzdəyin şərəf ünvanına çevrilən igid

**2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti silahlı təxribatına cavab olaraq ordumuzun əks-hücum əməliyyatları başlananda, hər yerdə olduğu kimi, Güzdək qəsəbəsi icra nümayəndəliyinin qarşısında da çoxlu gənc toplaşmışdı. Hamısı döyüş bölgəsinə gedib vuruşmaq istəyirdi. Rüstəm Turabov da onların arasında idi. O, evin tək oğlu olsa da könüllü yazılmağa gəlmişdi.**





Dünəndən bir-biri ilə qaçdı-tutdu, gizlən-qaç oynayan uşaqlar artıq böyüyüb, Vətənin çağırışı ilə cəbhəyə getdilər. 44 günlük zəfər yürüşündən sonra onlardan sağ-salamat geri dönənləri də oldu, yaralananları da. Rüstəm Turabov isə şəhidlik zirvəsinə ucaldı.

1998-ci il sentyabr ayının 22-də Abşeron rayonunun Güzdək qəsəbəsində anadan olan Rüstəm məktəbi bitirdikdən sonra 2016-cı ildə Hərbi Hava Qüvvələrində qulluq edib. 2020-ci ildə Qarabağ uğrunda gedən döyüşlərə qatılan Rüstəm Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd ərazilərində şücaət göstərib. 2020-ci il oktyabr ayının 15-də Ərgünəş yüksəkliyinin azad olunması uğrunda gedən əməliyyatlarda qəhrəmancasına şəhid olub.

**Döyüş yoldaşı Hüseyn Vəliyev onun barədə danışaraq dedi:**

– Rüstəm mehriban yoldaş, cəsur döyüşçü idi. İlk döyüşlərimiz Cəbrayılda oldu. Həmişə ön sırada olurdu, cəsarəti ilə bizi ruhlandırırdı. İlk şəhidimiz də elə Rüstəm oldu. Ölümü bizi çox sarsıtdı.

**Şəhid haqqında anası Kəmalə Turabova yana-yana danışdı:**

–Uşaq vaxtı mən ona Xocalı faciəsindən, erməni vəhşiliyindən danışanda deyərdi ki, ana, mən gedib torpaqlarımızı alacağam. Vətənpərvər idi, izlədiyi filmlərin çoxu da bu mövzuda olurdu. Bizdən xəbərsiz könüllü olaraq cəbhəyə yazıldı. Sentyabrın 28-i çağırış kağızı gəldi. “Əgər qorxursansa getmə” – dedim. Güldü, “Qorxmuram, Vətən uğrunda döyüşmək mənim arzum idi”– dedi. Səhər balamı yola saldıq. Bir gün onun evdəki paltarlarını yuyanda, nədənsə, mənə elə gəldi ki, bu sonuncu olacaq. Ağlıma gələn başıma gəldi, Rüstəm şəhid oldu. Onun yoxluğunu qəbul etmək çətin olsa da,Vətənə qurban getməsindən təsəlli tapıram. Mən oğlumla fəxr edirəm. Təki Vətən sağ olsun!

Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Rüstəm Fərman oğlu Turabov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib. “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medallarına da layiq görülüb.

Qəsəbəmizdəki küçələrdən birinə Rüstəm Turabovun adı verilib, xatirəsini əbədiləşdirmək məqsədi ilə abidə-bulaq tikilib. Əbəs yerə deyilmir ki, igid ölər adı qalar.

***Rüfət MƏHƏRRƏMOV***

# Şəhidlərimizi tanıyaq və tanıdaq

**“Şəhidlər ölməz, Vətən bölünməz” deyən millətimizin sarsılmaz iradəsi var. Biz bu gün burada rahat və təhlükəsiz yaşaya biliriksə, bunda igid qardaş və bacılarımızın rolu böyükdür. Ona görə Vətən uğrunda düşünmədən canını verən şəhidlərimizi, qazilərimizi, qəhrəmanlarımızı tanımalı və tanıtmalıyıq. Bu, bizim insan olaraq ən birinci vəzifəmizdir.**



Bu məqsədlə Sabunçu Gənclər evində şəhid komandir Vüqar Əsədov, baş leytenant Məhəmməd Məmmədov, əsgər Anar Vəliyev, ilk könüllü snayper qız döyüşçü Vəfadar Dəmirçioğlu (Vəfa Mansurova) anılıb və qəhrəmanlıqlarından danışılıb.

Əvvəlcə dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Qazax Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizə, şəhid ailələrinə və qazilərimizə göstərilən dövlət qayğısından söhbət açıb. Onların adlarının Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsinə əbədi yazıldığını söyləyən natiq şəhidlərin xatirəsinin heç zaman unudulmayacağını vurğulayıb.

Tədbirdə şəhidlərin ailə üzvləri və dostları çıxış edərək onlar haqqında danışmağın çox çətin, amma qürurlu olduğunu, onlarla fəxr etdiklərini deyiblər. Şəhidlərin qəhrəmanlıqları yada salınıb, yaşadıqları xoş anlardan söhbət açılıb.

Gənc şair **Elmar Sahib** çıxışında bildirib ki, qoçaqlığı və sadiqliyi ilə seçilən şəhid komandir Əsədov Vüqar Habil oğlu 1974-cü il iyunun 29-da Qaradağ rayonunda dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra 1992-ci ildə Neft Akademiyasına (keçmiş Azərbaycan Neft və Kimya İnstitutu) qəbul olub. Müharibə başlayanda təhsilini yarımçıq qoyub könüllü olaraq cəbhəyə yollanıb və Füzuli uğrunda gedən döyüşlərdə komandir olaraq fəaliyyətə başlayıb. Müharibənin səngidiyi vaxtda onu məzuniyyətə göndərirlər. Gəlişindən iki-üç gün keçməmiş yenidən hərbi əməliyyatların başlandığını eşidir və heç kimə bir kəlmə demədən evdən döyüşə yollanır. Cəbhə xəttində cəngavər kimi savaşır və öz əsgərlərilə bərabər mühasirəyə düşür. Yoldaşlarını xilas etmək üçün qorxmadan düşmənin üstünə şığıyır və 4 güllə yarası alır. Vüqarın ağır yaralandığını fürsət bilən ermənilər onu əsir götürürlər. Həmin vaxt əsirlikdə olan azərbaycanlı həkimin köməyi ilə yaraları təmizlənib, bağlanılır. Vüqar oyananda yaralarını düşmənin sarıdığını düşünüb çox qəzəblənir və bütün sarğıları açır. Nəticədə qanaxmadan dünyasını dəyişən Vüqarı öz əsgəri Hadrudda dəfn edir.

Şəhid baş leytenantın anası **Yaqut Məmmədova** çıxışında qeyd edib ki, Məmmədov Məhəmməd Zakir oğlu 1994-cü il yanvarın 27-də Qazax rayonunun Alpout kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında “Tarix-coğrafiya müəllimliyi” üzrə ali təhsil alıb. Universiteti bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətə başlayıb. 2017-ci ildən eyni hərbi birləşmənin sıralarında zabit və taqım komandiri olaraq xidmət edib. Qorxmazlığı ilə seçilən, Azərbaycan Ordusunun leytenantı Məhəmməd Məmmədov 44 günlük Vətən müharibəsində iştirak edib, 2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.



Qızğın döyüşlərdə yaralanan Məhəmməd xəstəxanaya getməkdən imtina edib, yenidən əsgərlərinin yanına qayıdıb. Onların qayğısını çəkən komandir savaşlarda özü irəli atılıb, böyük igidliklər göstərib. Oktyabrın 6-da Ağdərə istiqamətində qanlı döyüşlər zamanı əsgəri Anar Vəliyevlə mühasirəyə düşərək şəhidlik zirvəsinə ucalıb. O, anadan olduğu Alpout kəndində dəfn olunub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Laçının azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.



Müstəqil həyata yenicə göz açan 18 yaşlı şəhid əsgərin anası **Fazilə Vəliyeva** vurğulayıb ki, oğlu Vəliyev Anar Həmzə oğlu 21 iyul 2002-ci ildə Qazax rayonunun Orta Salahlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb. Qəhrəmanlıqda heç kimdən geri qalmayan, fədakar döyüşçü torpaqlarımızın ərazi bütövlüyü uğrunda başlayan 44 günlük Vətən müharibəsində iştirak edib. Laçın və Suqovuşan döyüşlərində şücaət göstərib və oktyabrın 6-da Ağdərə istiqamətində komandiri ilə birgə mühasirəyə düşərək şəhadətə yüksəlib. O, yaşadığı Orta Salahlı kəndində torpağa tapşırılıb. Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Laçının azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medallarına layiq görülüb.

**Zərəngiz Dəmirçi Qayalı** bacısı haqqında danışarkən deyib ki, Qazax–Ağstafa bölgəsinin ilk və yeganə könüllü snayper qız döyüşçüsü Mansurova Vəfa Dəmirçi qızı 23 iyul 1966-cı ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Orta məktəbi bitirəndən sonra sənədlərini BDU-nun tarix fakültəsinə verib. Tarixçi olmaq istəyən Vəfa, öz tarixini yazıb. Vətənin səmasını qara buludlar alanda ehtiyatda olan zabit atasının silahını götürüb cəbhəyə yollanır. Atasından silahla davranmağın, hədəfə sərrast nişan almağın sirlərini hələ yeniyetmə çağlarında öyrənmişdi.

Vəfa 1992–1995-ci illərdə “Avey”, “Üçgül”, “Satılmış” mövqelərində vuruşub. Qazax rayon 707 nömrəli hərbi hissənin üçüncü



batalyonunun birinci bölüyünün snayperi qız döyüşçüsü olub. Lakin onu özünün razılığı ilə Mansurov Vəfadar Dəmirçi oğlu kimi qeydiyyata alıblar. Çünki qızların hərbi xidmətinə icazə verilmirdi. Xalq içində və əsgərlər arasında ona Vəfa Dəmirçioğlu deyirdilər.

Bu igid, cəngavər qız ayıq-sayıqlığı ilə seçilib, fədakarlıqları ilə ad qazanıb. Silah-sursat alınmasında, səngər qazılmasında, kəndin müdafiəsinin təşkilində əvəzsiz xidmətləri olub. Xalqın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra atəşkəsə nail olunur. Bir müddət sonra Vəfa evlərinə qayıdır, amma vaxtaşırı səngərlərə baş çəkir, əsgər dostlarını ziyarət edirdi. Namərd düşmənin savaşdan sonra da atəşkəsi pozması nəticəsində yanında mərmi partlamasından beyin zədəsi alır, amma bunu bildirmir, döyüş yoldaşları və ailəsindən gizlədir. Bu zədədən 6 ay sonra 1998-ci il aprelin 25-də dünyasını dəyişir. Ailəsi onu mənsub olduğu Qayalı qəbiristanlığında dəfn edir. Qəhrəman qızın xatirəsi qəlblərdə daim yaşayır.

Mərasimin sonunda şeirlər səsləndirilib və videoçarxlar göstərilib.

***A.İLHAMQIZI***
***XQ***

## Sosial xəbərlər

# Peşə kursları – məşğulluğa qapı

**Dövlət Məşğulluq Agentliyi bu ilin avqust ayında 1444 işsiz şəxsi əmək bazarının tələblərinə uyğun sənətlər üzrə peşə hazırlığı kurslarına cəlb edib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən aldığımız məlumatda deyilir.**



Bildirilir ki, onlardan 500 nəfəri üçün agentliyin Bakı, Gəncə və Göyçay, 944 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub. Kurslarda iştirakçılara müxtəlif peşələr üzrə nəzəri və praktiki biliklər tədris edilir.

Qeyd olunur ki, kursları bitirənlərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatına dəstək verilməsi işləri də aparılır. Ötən ay peşə hazırlığı kursları başa çatan 834 nəfərdən artıq 795 nəfəri (95,3 faizi) işlə təmin olunub.

# DOST-un “Ən tez” xidməti

**Ədliyyə Nazirliyi tərəfindən yaradılan e-xidmət – Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng (“Ən tez”) xidməti 1 saylı Bakı DOST Mərkəzində də istifadəyə verilib.**




Bu xidmət vasitəsilə vətəndaşlar notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, ailə məsələləri üzrə məhkəməyə müraciət, habelə tələbkar qismində bəzi məhkəmə qərarlarının icrası xidmətlərindən bəhrələnə biləcəklər.

Smart konsepsiya əsasında fəaliyyət göstərən “Ən tez” xidmət sistemi biometrik eyniləşdirmə imkanına malik olduğundan müraciət edən şəxsin hər hansı bir portalda qeydiyyatı və ya elektron imza sahibi olması tələb edilməyəcək.

Bundan əvvəl 3 saylı Bakı DOST Mərkəzində və Heydər Əliyev Beynəlxalq Aeroportunda istifadəyə verilmiş “Ən tez” xidməti vətəndaşlara, o cümlədən səyahət etmək istəyənlərə yerindəcə müraciət etməklə məsafədən zəruri ədliyyə xidmətlərinin göstərilməsi imkanı yaradır.

Ədliyyə Nazirliyi tərəfindən “Ən tez” xidmətinin paytaxtla yanaşı, respublikamızın digər bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, habelə ASAN xidmət mərkəzlərində və insanların daha çox müraciət etdikləri digər xidmət məkanlarında da istifadəyə verilməsi nəzərdə tutulur.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Hər kəsin və hamının işi

# Şamaxıda ictimai nəzarət problemlərin həllinə təkan verir

**Babalar yaxşı deyib: "El gözü tərəzidir". İndiki anlamda ictimai nəzarət ayrı-ayrı fərdlərin davranışından tutmuş, cəmiyyətdə baş verən irili-xırdalı proseslərədək, xüsusən əhalinin gündəlik tələbatını cavablandıran, ehtiyaclarını ödəyən qurumların fəaliyyətinədək hər sahədə yaxşını pisdən ayırmağa, nöqsan və çatışmazlıqları yerindəcə aşkar edib aradan qaldırmaqda təsirli kütləvi vasitədir. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə mərkəzi və yerli icra qurumları yanında ictimai şuraların yaradılması da məhz bu məqsədə xidmət edir.**



Şamaxı Rayon İcra Hakimiyyəti yanında İctimai Şura son 1 ildə fəaliyyətini Ümummilli lider Heydər Əliyevin "Dövlət qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir" mülahizəsinin və "İctimai iştirakçılıq haqqında" Qanunun tələbləri əsasında quraraq yaşayış məntəqələrində bir sıra çatışmazlıqların aradan qaldırılmasına, sakinlərin arzu və təkliflərinin ümumiləşdirilib rayon rəhbərliyinə və əlaqədar qurumlara çatdırılmasına nail olub. Rayonun ictimai fəallarından, təcrübəli veteranlardan ibarət 13 nəfərlik şura əhali arasında səmərəli və operativ iş aparmaq üçün geniş şəbəkə qurub, işlək mexanizm yaradıb. Şuranın keçirdiyi görüş və reydlərdə narazılıq doğuran məsələlər qeydə alınır, bir çoxu yerindəcə həll edilir.

Şuranın yerlərdəki fəalları da əyinti və çatışmazlıqları davamlı olaraq quruma çatdırır, onun nəticəsi barədə maraqlı şəxs və qruplara məlumat verirlər. Beləliklə, İctimai Şura təmsil etdiyi rayon əhalisinin ümumi məmnunluğunun təmin edilməsində gərəkli bir vəsiləyə çevrilib. İctimai nəzarət şəbəkəsinin fəaliyyəti Şamaxı TV-nin internet səhifəsində davamlı işıqlandırılır.

Şurada ötən müddətdə fermer təsərrüfatlarında üzümçülüyün daha geniş inkişaf etdirilməsi, səhiyyə orqanlarında olan mövcud vəziyyət, əhaliyə göstərilən sosial tədbirlərin təşkili, yeni yaradılmış məhəllə komitələrinin fəaliyyətinin genişləndirilməsi, yaşıllaşdırma işlərinin daha da sürətləndirilməsi kimi quruculuq məsələlərinin təşviqi ilə bağlı müxtəlif müzakirə və aksiyalar təşkil edib. Eyni zamanda, əhalini narahat edən digər məsələlər gündəlik diqqət mərkəzində olub. İctimai Şuranın nəzdində mövcud qanuna müvafiq olaraq "Qadınlar", "Gənclər və yeniyetmələr ", "İctimaiyyətlə əlaqə" komitələri və məlumat-informasiya qrupu yaradılıb. Komitələr tərkibinə görə rayonun əksər zonalarını əhatə edir.

Şəhidlərin xatirəsinə ehtiram, şəhid ailələrini və qaziləri narahat edən məsələlər də daim diqqətdə saxlanılır. Şurada ərizə və şikayətlərin uçotu aparılır, qaldırılan və yaxud müraciət olunan təkliflər bələdiyyə və icra orqanları ilə əlaqəli şəkildə operativ həll edilir.

Ulu öndər Heydər Əliyev demişdir: "Şamaxı Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biridir." Bütün insanlarımız kiçikdən böyüyə, hamımız bu tarixi sözləri doğrultmaq üçün var gücümüzlə çalışırıq. Əhali ilə sıx təmasların yaradılması, arzu və istəklərinin öyrənilməsi, onlar üçün müxtəlif peşələr üzrə iş yerlərinin yaradılması təcrübəsi bu gün rayonda mühüm ictimai tələblər kimi həll edilir.

Yeri gəlmişkən, 105 min nəfər əhalisi olan,1 şəhər, 5 qəsəbə, 57 kənddən ibarət Şamaxı rayonu regionların sosial-iqtisadi inkişafı proqramının növbəti tədbirləri çərçivəsində bir sıra layihələrin gerçəkləşdirildiyi pilot bölgədir. 2019–2023-cü illəri əhatə edən regional inkişaf proqramı üzrə Şamaxı rayonunda ASAN xidmət və Əlillərin regional bərpa mərkəzləri yaradılıb. Son dövrdə 8 orta məktəb, 7 modul tipli məktəb binası tikilib. Göylər 1 saylı və Hacıqədirli tam orta məktəbləri isə bu il istifadəyə veriləcək. Yerli əhəmiyyətli avtomobil yollarının, rayon mərkəzində küçə və səkilərin asfaltlaşdırılması davam etdirilir. 2019-cu il fevral ayının 5-də Şamaxıda baş vermiş dağıdıcı zəlzələnin nəticələrini aradan qaldırmaq üçün yüksək sürətlə quruculuq işləri aparılıb. Bu məqsədlə 5 mindən çox müraciətə baxılıb və operativ tədbirlər görülüb.

Son illərdə 2 min hektar yeni üzümlüklər salınıb, vaxtı keçmiş bağlar təzələnib.

**Bütün bunlar barədə ətraflı məlumat verən İctimai Şuranın rəhbəri Eybalı Ağayev müşahidə edilən problemlər barədə də söhbət açdı:**

– Səhiyyə xidməti sahəsində görülən müəyyən işlərlə yanaşı, Mərkəzi Xəstəxana sistemində 46 həkim, 70-dən çox orta tibb işçisi çatışmır. Təkcə Göylər kənd xəstəxanasında 98 ştatdan 37-si boşdur. Təcili tibbi yardımda isə nəqliyyat vasitələri və işçilər çatışmır. Sabir qəsəbə həkim məntəqəsində 3, Çarhan kəndində 2, Məlikçobanlı və I Çaylı kəndlərində tibb bacısı ştatları boşdur. Mərzəndiyyə, Məlhəm, Ərçiman, II Cabanı, Qonaqkənd, Qaravəlli, Dəmirçi, Dağ Bağırlı, Quşçu kənd tibb məntəqələrində orta tibb işçiləri yoxdur. Təəssüf ki, bu gün, təxminən, 15 min nəfər tibb xidmətlərindən öz ərazilərində istifadə edə bilmir. Sakinlər adi bir iynə vurdurmaq üçün uzaq məsafələri qət etməli olurlar. Bu vəziyyət TƏBİB-in rəhbərliyinə məlum olsa da, bir ildən çoxdur ki, əməli tədbirlər görülmür.

Yeri gəlmişkən qeyd edək ki, Şamaxıda bütün respublika üçün orta ixtisaslı kadr hazırlayan tibb texnikumu 40 il qabaq səbəbi bilinmədən bağlanıb. Səhiyyə Nazirliyi isə həmin məktəbin açılması barədə təklifimizi araşdırmadan rədd cavabı verib.

Şamaxıda xəstəxana və poliklinikanın vəziyyəti də ürəkaçan deyil. Xəstələr qonşu rayonlara və Bakıya üz tuturlar. Qonşu rayonların hamısında yeni tipli xəstəxanalar var. Lakin regional mərkəz sayılan Şamaxının müasir tipli xəstəxanası yoxdur. Böyük Xınıslı və Kiçik Xınıslı kəndlərində fəaliyyət göstərən uşaq bağçaları evlərdə yerləşir, Şəhriyar qəsəbəsindəki bağça illərdir ki, təmirini gözləyir. Modul tipli uşaq bağçası və körpələr evinin tikintisinə ciddi ehtiyac var. Uzun illər bundan əvvəl Şamaxı şəhərinin görkəmli yerində tikilən peşə məktəbi şəhərciyi köhnəlmiş, bəzi hissələri dağılmaq üzrədir.



Əhalinin qaz, elektrik enerjisi, içməli və texniki su təchizatı yaxşılaşdırılır. Şəhər və kəndlərin abadlaşdırılması ilə bağlı tədbirlər də sistemli aparılır. Rayon mərkəzində böyük bir ərazini əhatə edən, illərlə baxımsız qalan 20 Yanvar parkı yenidən qurulur. Orada insanların mədəni istirahəti üçün xüsusi guşələr və obyektlər yaradılması nəzərdə tutulub. Rayonda əmək qabiliyyətli əhalinin işlə təmin olunması üçün sistemli iş aparılır. Son 4 ildə 46 mindən çox işsiz üçün istehsalat və digər sahələrdə iş yerləri açılıb. 1165 ailə və 5231 nəfər ünvanlı sosial yardımla təmin olunub.

Şamaxı daim üzümçülük diyarı kimi tanınıb. İndi yenidən üzümçülüyün və şərabçılığın inkişafına xüsusi diqqət yetirilir.

Şamaxıda yaşıllıq tədbirlərini genişləndirmək üçün kommunal təsərrüfatı MMC nəzdində tingçilik bölməsinin yaradılması təşəbbüsünü qaldırmışıq. Tingçilik sahəsi olarsa yerli şəraitə uyğun ağac növlərinin yetişdirilməsi on dəfələrlə ucuz başa gələcək. Rayon icra hakimiyyəti rəhbərliyi bunun üçün münasib su ehtiyatı olan yerdə 2 hektar sahə ayırıb.

Şura üzvləri Prezident İlham Əliyevin ictimai nəzarət sisteminin qarşısında qoyduğu vəzifələri lazımi səviyyədə yerinə yetirmək üçün fəaliyyətini təşəbbüskarlıqla davam etdirir, icra qurumlarının təsirli tədbirlər görməsinə nail olur.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Füzuli Dövlət Dram Teatrı yeni mövsümdə

**Füzuli Dövlət Dram Teatrında 34-cü mövsümün başlanması ilə əlaqədar keçirilən toplantıda teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev və yaradıcı heyət iştirak edib.**



Məlumat verilib ki, teatrda ötən mövsümdə Mədəniyyət Nazirliyinin təsdiq etdiyi repertuar planına uyğun olaraq Abdulla Elşadlının "Tənhalığın evi", Xaqani Əliyevin "Molla Nəsrəddin", Ələsgər Qurbanovun "Tənbəl Əhməd" tamaşaları hazırlanıb və ictimaiyyətə təqdim olunub. Bununla yanaşı, Yeni il və Novruz bayramı ilə əlaqədar şou-proqramlar, Xocalı soyqırımına həsr olunmuş "Şəhid şəhər Xocalı", 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar "Şəhidlər ölməz" və bir çox poetik xalq tamaşaları rayon ictimaiyyətinə təqdim olunub. Teatr 4.4 Qısa Tamaşalar Festivalında, "Milli klassika" festivalında, Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş bədii qiraət müsabiqəsində iştirak edib və diploma layiq görülüb.

Eyni zamanda, teatrın baş rejissoru, Əməkdar artist Asif Şirinov və quruluşçu rejissoru Nicat Mirzəzadə Prezident mükafatına layiq görülüb. Teatr Ağdam, Tərtər, Goranboy, Gəncə, Mingəçevir, Xocavənd və digər rayonlarda qastrol səfərlərində olub. Hər il olduğu kimi, bu il də teatr mütəmadi olaraq hərbi hissələrdə olub, müxtəlif janrlı tamaşalar və konsert proqramları ilə çıxış edib.

Teatrın hərbi hissədəki bu xidmətləri yüksək qiymətləndirilib, fəxri fərman və diplomlarla təltif olunub. Qeyd edilib ki, Füzuli Dövlət Dram Teatrı yeni mövsümü Nəcəf bəy Vəzirovum "Yağışdan çıxdıq, yağmura düşdük" tamaşası ilə açacaq.

***XQ***

Qayıdış layihələri

# Baş Qərvənd də "Ağıllı kənd" olacaq

## Emin Hüseynov: "Layihə Azərbaycanın vəsaiti hesabına həyata keçiriləcək"

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur.**

Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Bu layihə çərçivəsində ən önəmli komponentlərdən biri də "Ağıllı kənd" və "Ağıllı şəhər"lərin tikintisidir. Artıq ilk belə kənd Zəngilan rayonunun Ağalı kəndində salınıb sakinlərin istifadəsinə verilib və orada artıq ailələr yaşayır. Növbəti belə bir kənd isə Azərbaycan dövlətinin öz maliyyəsi hesabına Füzuli rayonunun Dövlətyarlı kəndində tikiləcək.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bu mövzuda açıqlamasının davamında bildirib ki, Dövlətyarlı kəndində artıq layihələndirilmə işləri yekunlaşmaq mərhələsindədir. Kənddə bir ay ərzində torpaq işlərinə başlanılacaq. Dövlət satınalmaları proseduru isə artıq işə başlayıb: "Bu istiqamətdə üçüncü belə bir layihə Ağdam rayonunun Baş Qərvənd kəndində reallaşacaq. Digər əvvəlki layihələrdən fərqli olaraq Baş Qərvənd kəndinin Slovakiya Respublikasının mütəxəssisləri tərəfindən layihələndirilərək "Ağıllı kənd" kimi bərpa olunması nəzərdə tutulur. Sözsüz ki, bu layihə də Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçiriləcək. Amma burada tətbiq ediləcək "ağıllı" həllər məhz dünyada in-




frastruktur sahəsində geniş tətbiq olunur. Hesab edirik ki, bu da bərpa prosesində baş verən yeniliklərdən biridir".

Qeyd edək ki, layihə çərçivəsində, ümumilikdə ərazisi 470 hektar olan bir kəndin tamamilə yenidən qurularaq "Ağıllı kənd" kimi bərpası nəzərdə tutulur. Birinci mərhələdə 5 min 500, sonra isə 1170 nəfərin köçürülməsi planlaşdırılır. Əvvəlcə 917, növbəti mərhələdə isə 600 ev tikiləcək.

Layihəni önəmli edən digər bir məqam isə Baş Qərvənd kəndinin keçmiş təmas xəttində yerləşməsidir. Kənd həddindən artıq mina ilə çirklənib. Buna baxmayaraq, işlər layihəyə uyğun aparılacaq.

***XQ***

# Cəbrayılın Horovlu kəndi iri məntəqə kimi dirçəldilir

## Burada 1400 sakin üçün 334 ev tikilir

**Cəbrayıl rayonu 27 ildən sonra düşmən işğalından azad edilib. Əsas döyüşlər Lələtəpə yüksəkliyindən Vilayət postu və Füzuli rayonundakı "Yastıtəpə" istiqamətində olub.**

Bu ərazidə dağ və təpəliklər, düşmənin müdafiə xətti (Böyük Cocuq Mərcanlı–Kənd Horadiz xətti) yerləşirdi. Hücum əməliyyatları aparmaq bölmələrdən, hətta hər bir əsgərdən xüsusi hazırlıq tələb edirdi. Xüsusi təyinatlı qüvvələrimiz döyüş tapşırığını yerinə yetirməyə tam hazırlıqlı idilər. Cəbrayıl döyüşlərinin xronikasında göstərilir ki, əməliyyatın ilk saatlarından Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası məhv edildi. Düşmənin müdafiə xətti yarıldı. Buradan həm Füzuli, həm də Cəbrayıl istiqamətində hücumu genişləndirmək imkanı qazanıldı.

Cəbrayıl əməliyyatının uğurla həyata keçirilməsi nəticəsində 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun bir çox kəndləri azad edildi. Bu rayon azad olunandan sonra o vaxt işğal altında olan digər rayonlara uğurlu əks-hücum mümkün oldu. Cəbrayıldan sonra Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Növbəti Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü. Bütün bunlarla yanaşı, Cəbrayıl əməliyyatı ilə Xudafərin körpüsü düşməndən azad edildi. Azərbaycan–İran sərhədinə dövlət nəzarəti bərpa edildi.

Artıq Cəbrayıl rayonunun azad edilməsindən 3 il keçib. Bu gün rayonda geniş bərpa-quruculuq işləri həyata keçirilir. Cəbrayılın inkişaf mərhələsi şəhərlə yanaşı, ətraf kəndləri də əhatə edir. Şəhərlə paralel olaraq Horovlu, Şükürbəyli kəndlərinin, həmçinin Xudafərin qəsəbəsinin şəhərsalma əsaslandırmaları təsdiqlənib və həmin ərazilərdə inşaat işlərinə başlanılıb. Bərpa-quruculuq işlərinə başlanan yerlərdən biri də Horovlu kəndidir. Bu yaşayış məntəqəsini XVIII əsrin əvvəllərində Cənubi Azərbaycanın Horov kəndindən gələn ailələr saldığı üçün kənd də belə adlandırılıb. İşğaldan əvvəl əhalinin əsas məşğuliyyəti üzümçülük idi. Bundan başqa, kənddə heyvandarlıq, taxılçılıq, şərabçılıq da inkişaf etmişdi.

Horovlu kəndinin ərazisində bir sıra tarixi-dini abidələr, o cümlədən Cinlitəpə yaşayış yeri, "Çələbi ocağı" və "Qarı ocağı" ziyarətgahları yerləşirdi. Bu kənd də Azərbaycan Ordusu tərəfindən 2020-ci il oktyabrın 4-də azad edilən yaşayış məntəqələrindən biridir. İndi kənddə geniş quruculuq işləri həyata keçirilir. Prezident İlham Əliyev bu il mayın 4-də təməlqoyma mərasimində iştirak edib. Kəndin layihələndirilən ümumi ərazisi isə 248,1 hektardır. Perspektivdə burada 3 min 470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.

Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən yeni məntəqə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı



kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə 1400 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər 2, 3, 4 və 5 otaqlı olacaq.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində kənd ərazisində yerləşən 6 kəhrizin bərpası da nəzərdə tutulur.

Cəbrayıl rayonunun Horovlu kəndinin bərpa və yenidən qurulması zamanı yaranan tullantılar isə təkrar emal ediləcək. Bu məqsədlə rayon ərazisində tikinti-söküntü qalıqlarını təkrar emal edən avadanlıq quraşdırılıb.

Təkrar emal nəticəsində tikintidə istifadə edilə bilən materiallar əldə olunur. Bu materiallardan inşaat zamanı yol yataqlarında, beton işlərində, alt dolğu işlərində səmərəli istifadə ediləcək. Bu yanaşma tullantıların poliqona aparılmadan emalı üçün imkan yaradır. Təbii ehtiyatların səmərəli istifadəsinə və ətraf mühitə mənfi təsirinin azaldılmasına yönəlib. Bundan başqa, təkrar emal vasitəsilə maliyyə vəsaitlərinə də qənaət ediləcək.

Tezliklə kənddə həyat öz axarına düşəcək.

***P. ƏFƏNDİYEV***
***XQ***

# Güclü ordu – qüdrətli Türkiyə

**Prezident Rəcəb Tayyib Ərdoğan bu il sentyabrın 4-də Soçidə rusiyalı həmkarı Vladimir Putin ilə görüşərək onunla bir çox aktual problemləri geniş müzakirə edib. Gündəmdə "Taxıl sazişi"nin bərpası, Rusiya-Ukrayna müharibəsində atəşkəsə nail olunmağın vacibliyi, Suriyada və Cənubi Qafqazdakı mövcud durum və digər aktual məsələlər yer alıb.**



Bu, çoxlarının səbirsizliklə gözlədiyi və böyük ümidlər bəslədiyi görüş idi. Bir çox təhlilçilər Soçi sammitində müzakirələrin kifayət qədər məhsuldar olduğunu qeyd edir, bir başqaları isə liderlərin konkret bir razılığa gəlmədiklərini iddia edirlər. Çağdaş dünyanın qalaq-qalaq toplanan problemlərinin həllini Soçidəki görüşdən umanlar da vardı.

Bəzi dairələr hətta NATO üzvü olan Türkiyə dövlətinin Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara qoşulmadığını, üstəlik iki liderin bir çox mühüm məsələlərdə yaxın mövqe sərgilədiklərini dilə gətirir, Türkiyə liderini Rusiya ilə yaxınlaşmaqda ittiham edirlər. Fikrimcə, bunlar qərəzli və əsassız mühakimələrdir.

Görünən budur ki, Qərb siyasətçiləri Prezident Ərdoğanın öz dövlətinin və xalqının milli maraqlarına xidmət edən səriştəli, qətiyyətli və prinsipial siyasətinə qısqanc yanaşır, çağdaş zəmanənin görkəmli dövlət xadimini hər vəchlə gözdən salmağa cəhd edirlər. Səbəb isə budur ki, Ərdoğan Türkiyəsi 20 il bundan əvvəlkindən qat-qat güclüdür, regionda və bütün dünyada söz sahibidir.

Bəli, güclü və qüdrətli Türkiyə bu gün dünyada haqqın və ədalətin yanında durmağı bacaran dövlətdir. Bu bir həqiqətdir, qardaş ölkə sabah isə daha güclü və möhtəşəm olacaq. Axı, Ankara qarşısına qoyduğu hədəfləri fəth etməyi bacarıb və bacarır.

Prezident Ərdoğan Ankarada 30 Avqust – Zəfər Günü münasibətilə təşkil olunan möhtəşəm mitinqdəki nitqində bildirib ki, Türkiyənin özünün müdafiə qüdrətini gücləndirməsi sadəcə seçim imkanlarından biri kimi deyil, həyati əhəmiyyət kəsb edən zərurət kimi dəyərləndirilməlidir. Belə ki, güclü ordusu olmadan güclü Türkiyə ola bilməz.

Dövlət başçısının sözlərinə görə, son illərin təcrübəsi göstərir ki, Türkiyə Silahlı Qüvvələrinin gücləndirilməsinin alternativi yoxdur. Danılmaz həqiqət budur ki, Türkiyə bu gün özünü və müttəfiqlərini qorumaq üçün birmənalı olaraq güclü, modern və yüksək peşəkar və intizamlı orduya malikdir.

Prezident qeyd edib ki, bu istiqamətdə bütün zəruri addımlar atılıb və tarixi uğurlar əldə edilib. Hazırda Türkiyə müdafiə qüdrətinə görə dünyanın ən güclü dövlətlərinin ön sıralarındadır. İndi ölkə elə bir nöqtəyə çatıb ki, bu səviyyə çoxları üçün əlçatmazdır. Belə ki, dünən ona havadan müdafiə sistemləri verməyən ölkələr, bu gün Ankaradan bu sistemləri satın almalı olurlar.

Türkiyənin kütləvi istehsalına hazırlaşdığı KAAN qırıcı təyyarələri barədə danışarkən Prezident ümid etdiyini vurğulayıb ki, bu sahədə işlər ilin sonuna qədər uğurla başa çatacaq. Türkiyə Kosmik Sənayesinin rəhbəri Təməl Kotil bildirmişdi ki, milli istehsal olan KAAN beşinci nəsil qırıcı təyyarələri dekabrda uçmağa başlayacaq.

Xatırladaq ki, yerli mühərriklərlə təchiz olunacaq bu qırıcıların ilkin mərhələdə 2028-ci ildə kütləvi istehsalına başlanılması nəzərdə tutulmuşdu. Lakin proses sürətləndirilib. Yeri gəlmişkən, qardaş ölkədə KAAN layihəsinə 2016-cı ildə başlanılıb.

Bir çox siyasi təhlilçilər vurğulayırlar ki, Türkiyənin hərbi sahədə parlaq uğurları İraq və Suriyanın şimalında, xüsusilə də İdlibdə aparılan gərgin antiterror əməliyyatlarında özünü yüksək səviyyədə göstərib. Liviyada Ankara qiyamçı general Həftara qarşı ağır mücadilədə beynəlxalq qurumların tanıdığı qanuni hökuməti dəstəkləyib. Türkiyə Ordusunun hərbi təlimçilərinin yardımı ilə yaraqlılara sarsıdıcı zərbələr endirilib.

Türkiyə Ordusu vaxtaşırı İraqın şimalında və Suriyanın terrorçulardan azad edilən ərazilərində PKK-YPG terrorçularına qarşı uğurlu hərbi hava əməliyyatları həyata keçirir. Məqsəd terorrçuları yerindəcə məhv etmək, onların Türkiyə ərazisinə keçərək bəd əməllər törətməsinə imkan verməməkdir.

Türkiyə bu gün planetimizdə təkcə hərbi qüdrəti ilə deyil, həm də mədəni, mənəvi dəyərləri ilə cəlbedici bir dövlətə çevrilən "yumşaq güc" mərkəzidir. Bu, günümüzün reallığıdır və bunu inkar etmək qeyri-mümkündür.

***Məsaim ABDULLAYEV***
***XQ***

## EKSPERT RƏYİ

**İbrahim RÜSTƏMLİ,**
**ehtiyatda olan polkovnik, hərbi ekspert:**



– Türkiyə əsas üzvlərindən biri olduğu NATO-nun hərbi qüdrətinə görə ikinci böyük dövlətidir. Alyansın cənub cinahını qoruyan Türkiyənin qitədə və bütün dünyada təhlükəsizliyin qorunmasında rolu böyükdür.

Qeyd etmək lazımdır ki, ordu-millət anlayışının sahibi olan türk milləti Mete Han, Sultan Alparslan, Fatih Sultan Mehmet, Qazi Mustafa Kamal kimi dahi sərkərdələr yetişdirib. Türk ordusu həm də dost və qardaş xalqlar üçün bir ümid məşəlidir. Türkiyə Silahlı Qüvvələri öz yurdunu qorumaqla yanaşı, BMT xəttilə müxtəlif sülhməramlı əməliyyatlarda da iştirak edir.

Türkiyə bir çox beynəlxalq missiyalarda iştirak edib. Cənubi Koreyadan Əfqanıstana qədər bir sıra yerlərdə türk əsgər və zabitləri hünər yazıblar, şəhidlər veribdir.

Türkiyə Ordusu NATO-nun ən güclü silahlı qüvvələri sırasındadır. Mən deyərdim ki, NATO-nun nüfuzu, ilk növbədə, Türkiyə Silahlı Qüvvələrinin yenilməz gücü ilə bağlıdır. Türkiyə istər müasir hərb elminin tətbiqi, istərsə də cəbbəxanasının günün müasir tələbləri səviyyəsində qurulması baxımından silahlı qüvvələrində çox ciddi islahatlar aparmış dövlətdir.

Onun Silahlı Qüvvələri kadr islahatları, silah-sursatın yenilənməsi, rəhbər vəzifələrin ştat strukturları, əməliyyat islahatları yönündən dünyada hərb elminin brendidir.

Bu mənada Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin modeli şəklində identifikasiya olunması Silahlı Qüvvələrimizin gələcək perspektivi üçün böyük əhəmiyyət daşıyacaq.

Belə ki, kadr potensialımız və müdafiə qabiliyyətimiz güclənəcək. Azərbaycan–Türkiyə həmrəyliyi türk dünyasının və onu sevən insanların birliyidir. Ona görə də xalqımız bu birliyi təqdir edir və bundan fəxarət duyur.

# Fransa qoşunlarını Nigerdən çıxaracaq

**Fransa qoşunlarının Afrika ölkəsindən çıxarılması ilə bağlı Nigerlə danışıqlara başlayıb. Bu barədə "Le Monde" nəşri özəl mənbələrinə istinadla yazıb.**



Nəşr bildirir ki, Fransa ordusunun ayrı-ayrı hissələrinin çıxarılması ilə bağlı artıq danışıqlar aparılır. Həmsöhbətlərdən biri bildirib ki, ölkələr arasında terrorizmlə mübarizə sahəsində əməkdaşlıq başa çatdığından belə bir müzakirənin keçirilməsi normaldır.

Nəşrin məlumatına görə, hazırda Nigerdə, təxminən, 1,5 min fransız əsgəri var. Onlardan neçəsinin və hansı zaman çərçivəsində Nigeri tərk edəcəyi hələ bəlli deyil.

Bundan əvvəl Niger Silahlı Qüvvələrinin bölmələri fransız qoşunlarının hərəkətlərini izləmək üçün Niameydəki Fransa hərbi bazasına yollanıb. Qərar, Nigerin fransız hərbçilərinin mövcudluğu ilə bağlı razılaşmanı pozmasına baxmayaraq, Fransa əsgərlərinin Afrika respublikasının paytaxtındakı hərbi bazada yerləşdirilməsinə davam edəcəyini elan etməsi fonunda qəbul olunub.

***XQ***

# Slovakiya Rusiyanın müttəfiqi olacaqmı?

**Slovakiya sentyabrda keçiriləcək parlament seçkilərindən sonra Rusiyanın yeni müttəfiqi ola bilər.**



"The Guardian" qəzetinin köşə yazarı Con Kampfner bildirib ki, rəy sorğularına inansaq, seçki "Moskvaya təriflər yağdıran və Viktor Orbanı təqlid edən" Robert Fikonun (Slovakiyanın keçmiş baş naziri) qayıdışı anlamına gələ bilər.

Kampfner hesab edir ki, belə olan halda Avropa İttifaqı və NATO-da "yeni fitnəkar" peyda olacaq.

Müəllif yazır ki, Fico seçilərsə, hazırda Kiyev rejimini dəstəkləyən Slovakiyanın siyasətində "180 dərəcə dönüş təhlükəsi" yaranacaq. O qeyd edib ki, Fiko parlament seçkilərində qalib gələrsə, ölkə Moskvaya yardım göstərməyə başlaya bilər.

***XQ***

## Mədəniyyət xəbərləri

# "İRS" jurnalı fransız dilində

**Jurnalın bu nömrəsində Azərbaycanın maddi-mədəni irsinə, qədim tarixinə, müasir inkişafına, ədəbiyyatına, azad edilmiş ərazilərdəki quruculuq işlərinə, dünya siyasətindəki uğurlarına, görməli-gəzməli yerlərinə həsr olunmuş məqalələr yer alıb.**




Jurnalda səfir Leyla Abdullayevanın Azərbaycan–Fransa münasibətlərinin tarixindən bəhs edən məqaləsi oxucuların diqqətinə çatdırılıb. Eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın incisi və hərbi-strateji əhəmiyyətə malik qədim Şuşa şəhərinə həsr olunmuş məqalə də dərc olunub.

Müasir Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Ümummilli Liderin həyat və siyasi fəaliyyətindən bəhs edən məqalə yer alıb.

Jurnalın fransızca buraxılışında Ermənistandan qovulmuş azərbaycanlılardan, "Qafqazın Xirosiması" adlandırılan Ağdam şəhərindən, milli teatr və musiqimizdən və Fikrət Əmirovdan bəhs edən məqalələr dərc olunub. Jurnalda dərc olunmuş məqalələr zəngin fotoillüstrativ materiallarla əhatə olunub.

# Aləmdə səsi var...

**C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşəbbüsü ilə Xalq yazıçısı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin anım günü keçirilib.**



Tədbirdə elm xadimləri, mətbuat nümayəndələri, şair və yazıçılar, tələbə-gənclər iştirak edib. Kitabxananın elmi işlər üzrə direktor müavini Günay Həsənova Azərbaycanda tarixi roman janrının görkəmli nümayəndəsi olan Əzizə Cəfərzadənin yaradıcılığında Vətən tarixi, xalqa sevgi motivlərinin üstünlük təşkil etdiyini söyləyib. Unudulmaz sənətkarın bir tədqiqatçı alim kimi Azərbaycan elmi qarşısında xidmətləri xatırlanıb.

Filologiya elmləri doktoru, Vaqif Sultanlı, "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri, şair-publisist Güllü Eldar Tomarlı I Qarabağ Müharibəsi qazisi, mayor Aida Şirin, filologiya üzrə fəlsəfə doktorları Tacir Səmimi və Almara Nəbiyeva, iqtisad elmləri doktoru şair, sosioloq Əhməd Qəşəmoğlu və başqaları Əzizə Cəfərzadənin geniş elmi və ictimai fəaliyyətindən bəhs ediblər. Tədbirdə "Aləmdə səsim var mənim" adlı videomaterial nümayiş olunub, Əzizə Cəfərzadənin şeirləri səsləndirilib, aşıq sənəti nümunələri ifa edilib.

Sonda yazıçının oğlu Turan İbrahimov tədbir iştirakçılarına minnətdarlıq edərək, Əzizə Cəfərzadənin kitablarını C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasına hədiyyə edib.

***Hazırladı:***
***Ə.DOSTƏLİ, XQ***


## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

1. Maliyyə-İqtisad fakültəsi – dekan
2. İqtisadiyyat və idarəetmə kafedrası – kafedra müdiri

Müsabiqədə iştirak etmək istəyənlərin dekan vəzifəsinə fakültənin, kafedra müdiri vəzifəsinə isə müvafiq kafedranın profilinə uyğun yüksək, peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcələri olmalıdır. Sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək Akademiyaya təqdim edilməlidir.

**Telefonlar:** 563-13-07, 563-15-40.
**Ünvan:** AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

**Rektorluq**

## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası müəllim vəzifəsini tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

1. Mikroiqtisadiyyat – 1 ştat
2. Makroiqtisadiyyat – 0,5 ştat
3. Marketinq – 1 ştat
4. Menecment – 0,5 ştat
5. Dövlət qulluğu etikası – 0,5 ştat
6. İştehlakçı davranışları – 0,25 ştat
7. Elektron ticarət, pərakəndə ticarət – 0,25 ştat
8. Turizm planlaşdırılması və turizm siyasəti – 0,5 ştat
9. Sosiologiya – 0,5 ştat
10. Akademik yazı – 0,5 ştat
11. Sosial pedaqogika – 0,25 ştat
12. Gənclərin məşğulluğu və onun tənzimlənməsi – 0,5 ştat
13. Sosial təminat – 0,25 ştat
14. Maliyyə uçotu – 1 ştat
15. Maliyyə hesabatlılığı – 0,25 ştat

Müəllim vəzifələrinin müsabiqəsində iştirak etmək istəyənlərin müvafiq ixtisas üzrə elmi dərəcələri olmalıdır. Sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 7 avqust 1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş qaydalara əsasən, elan dərc olunandan bir ay müddətinədək Akademiyaya təqdim edilməlidir.

**Telefonlar:** 563-13-07, 563-15-40.
**Ünvan:** AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

**Rektorluq**

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 192 (30308) 7 sentyabr 2023-cü il, cümə axşamı

veb-sayt: www.xalqqazeti.az


İdman xəbərləri

## Fərid Qayıbov “Heydər zirvəsi”nə qalxıb

**Gənclər və idman naziri Fərid Qayıbov Şahdağ Milli Parkına daxil olan “Heydər zirvəsi”nə (3751 metr) qalxıb.**



Qeyd edək ki, Azərbaycan Alpinizm Federasiyasının baş katibi İsrafil Aşurlı nazirlə birlikdə olub.

Yürüş Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə baş tutub.

## “Danışılmış oyun” idmançı şərəfini alçaldır

**Seçmə mərhələ öncəsi təlim-məşq toplanışında olan 17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının üzvləri üçün “danışılmış oyunlar”la bağlı maarifləndirici seminar keçirilib.**



UEFA-nın Azərbaycan üzrə nümayəndəsi Seymur Səlimli “Danışılmış oyun haqqında nələri bilməliyik?” və “Bizim hədəfimiz sizi və futbolumuzu qorumaqdır” mövzularında mühazirə oxuyub, maarifləndirici və hesabat xarakterli təqdimatlar edib.

Seminarda “Danışılmış oyunlar”a qarşı mübarizə mövzusunda vacib məsələlər müzakirə olunub, təcrübə mübadiləsi aparılıb.

## 44 şahmatçımız Avropa çempionatında

**Rumıniyanın Mamaya şəhərində yeniyetmə şahmatçıların Avropa çempionatı başlayıb. Turnirdə 8, 10, 12, 14, 16 və 18 yaş kateqoriyalarında Avropanın ən yaxşı şahmatçıları müəyyənləşəcək.**



Qitə yarışında Azərbaycan böyük nümayəndə heyəti ilə təmsil olunur. Rumıniyada 44 şahmatçımız medallar uğrunda mübarizə aparır. Heyətdə Azərbaycan birinciliyinin qalibləri, “Baku Open” turnirində fərqlənən və uşaqlar arasında Landau Şahmat festivalında vəsiqə qazanan şahmatçılar yer alıb.

Yarış sentyabrın 15-də yekunlaşacaq.

***Leyla SABİRQIZI***
***XQ***

Texnologiya yenilikləri



## “Ağıllı” bel çantası

**“Microsoft” içərisində kamera və mikrofon sensoru olan süni intellektlə dəstəklənən bel çantasını patentləşdirib. Süni intellektlə işləyən bu qurğu ətrafdakı səsləri tanıyacaq və reaksiya verəcək.**

“Ağıllı çanta”da ürək döyüntüsü, təzyiqi və qanın şəkər səviyyəsini ölçə bilən biometrik sensorlar olacaq. Həmçinin məhsula GPS qurğusu, istiqaməti təyin etmək üçün kompas, termometr və barometr daxildir.

Məsələn, tutaq ki, bir xizəkçi qadağan olunmuş zonadan çıxmaq üçün “çanta”dan istiqamət soruşur. GPS xüsusiyyəti sayəsində bel çantası sensorlarından istifadə edərək məlumatları süni intellektə ötürür və o, xizəkçiyə hansı yolu izləməsi barədə məlumat verir.

***Aytən NƏCƏFOVA***
***XQ***

## El Salvadorda “Bitcoin” dərsləri

**Rəqəmsallaşan dünyada kriptovalyutalar geniş yayılmağa davam edir. Bu nöqtədə görkəmli ölkələrdən biri də El Salvadordur. Burada hazırda “Bitcoin”i (texnoloji pul) təhsil proqramına daxil etməyə hazırlaşırlar.**



Məlumata görə, 2024-cü ildən etibarən ölkənin təhsil müəssisələrində, xüsusilə dövlət məktəblərində “Bitcoin” haqqında dərs verilməyə başlanacaq. İbtidai məktəbləri də əhatə edəcək bu təlim çərçivəsində tələbələrə “kripto pullar” haqqında əsas məlumatlar və “Bitcoin”in iqtisadi təsirləri kimi mühüm mövzular izah ediləcək.

Qeyd edək ki, Salvador 2021-ci ildə “Bitcoin”i rəsmi valyuta kimi qəbul edən ilk ölkədir. Artıq 150-dən çox pedaqoqa “Bitcoin” və maliyyə təhsili verilib.

***Əfsanə ƏHƏDLİ***
***XQ***

Mədəniyyət

## Üzeyir Hacıbəyli təntənələri yaxınlaşır

**Sentyabrın 18-dən 28-dək Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**




Tədbir çərçivəsində Bakı, Gəncə, Şəmkir və Şuşada açıq havada və müxtəlif məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri və digər tədbirlər nəzərdə tutulur.

Qeyd edək ki, 2009-cu ildən etibarən keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının Milli Musiqi Gününə təsadüf edən ilk günü - sentyabrın 18-də Şuşa şəhərində açıq havada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında “Leyli və Məcnun” operası nümayiş olunacaq.

Eləcə də Bakıda Fəvvarələr Meydanında Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri bayram konserti təqdim edəcək. Həmin gün axşam isə Heydər Əliyev Sarayında Xalq artisti Arif Məlikovun dünyanın bir sıra teatrlarının repertuarını bəzəyən “Məhəbbət əfsanəsi” baleti uzun fasilədən sonra yenidən öz vətənində nümayiş olunacaq.

Tədbirdə ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Sinqapur və digər ölkələrdən tanınmış musiqiçi və kollektivlərin də iştirakı planlaşdırılıb.

***XQ***

Maraq dünyamız

## Kolumbun “Tanrının qəzəbi” kələyi

**Bir gün məşhur səyyah Kristofer Kolumb gəmilərini təmir etdirmək üçün Yamayka sahillərinə gəlir. Yerli sakinlər təmir işlərinə kömək edir və gəmi heyətini yemək-içməklə təmin etməyə başlayırlar. Təmirin uzanmasını və gəmi işçilərinə yemək çatdıra bilmədiklərini görən sakinlər ərzaq yardımını dayandırırlar. Kolumb gəmidəki təqvimə baxır və ertəsi gün Ay tutulması olduğunu öyrənir, dərhal yerlilərin başçısının yanına gedir.**



Kolumb başçıya Tanrı ilə əlaqə saxladığını və yardımların kəsilməsinin onu çox qəzəbləndirdiyini deyir. Tanrının öz qəzəbini Ayı qırmızı rəngə boyayaraq göstərəcəyini bildirir. Ertəsi gün axşam saatlarında Ay tutulması başlayır.

Yerlilər inilti və fəryadla hər yerdən gəmilərə tərəf gəlir, yemək-içmək gətirir, yalvarırlar ki, Tanrı onları bağışlasın.

Kolumb qum saatına baxır, 48 dəqiqəlik tutulma artıq bitmək üzrə idi.

Onlara deyir ki, Tanrı onları bağışlayıb və tezliklə Ayı öz rənginə qaytaracaq.

Kainatın “işini” yaxşı bilən Kolumb qeyd dəftərində belə yazır: “Cəhalət həmişə köləlik gətirir”.

***Fidan SALMAN***
***XQ***

## “SpaceX” orbitə 21 peyk çatdırdı

**“SpaceX” şirkəti il ərzində reallaşdırılan orbital uçuşlar üzrə yeni rekorda imza atıb. Bunun üçün şirkətə 8 aydan bir qədər çox vaxt lazım olub. 2022-ci ildə “SpaceX” ümumilikdə 61 uğurlu uçuş reallaşdırmışdı. Bu ilin 8 ayı ərzində isə şirkət 62 uğurlu uçuş missiyası reallaşdırıb.**

Sentyabrın 4-də “SpaceX”in “Falcon 9” raketi Florida ştatındakı kosmodromdan start götürərək Yer kürəsinin orbitinə 21 ədəd “Starlink” peyki çatdırıb. Yer kürəsinin orbitində olan “Starlink” peyklərinin sayı artıq 5 mini keçib.

Hazırda “SpaceX” kosmik uçuşlar sahəsində lider şirkətdir. Müqayisə üçün qeyd edək ki, bu ilin əvvəlindən başlayaraq Çin 39, Rusiya isə 12 uğurlu kosmik uçuş reallaşdırıb.



***A.İLHAMQIZI***
***XQ***

Sağlamlıq

## Öddə daş hər an təhlükəlidir

**Əgər öd yolu normal işləməyəndə, eləcə də qaraciyərdə problem yarananda, adətən, öd kisəsində daş yaranır. Öd kisəsində ən kiçik daş belə həyat üçün təhlükəlidir.**

Hepatoloq Alla Yujova öd kisəsi daşları zamanı əlamət və ağrılardan danışarkən bildirib ki, orada daş olan zaman qarında, sağ qabırğanın altında və sağ kürək nahiyəsində saatlarla sürən ağrılar ola bilər.



Öd kisəsi ağrıları günün istənilən saatında ola bilər, hətta ağrının təsirindən gecə yuxudan da oyana bilərsiniz.

Öd kisəsi daşları özünü yüksək hərarət, güclü ağrılı ishal, ürək döyüntüsü, göz ağının saralması, dəri qaşınması, iştahsızlıq, titrəmə kimi əlamətlərlə də göstərir.

***Z.HÜSEYNLİ***
***XQ***

Proqnoz




***Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, sentyabrın 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.***

Arabir güclənən şimal-qərb küləyi axşama doğru mülayimləşəcək. Havanın temperaturu gecə 20-24° isti, gündüz 24-28° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu olacaq. Nisbi rütubət gecə və gündüz 60-70 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 19-24° isti, gündüz 25-30° isti, dağlarda gecə 10-15° isti, gündüz 15-20° isti olacaq.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Universiteti (indiki BDU) tarix fakültəsinin AT-8 və AT-10 qruplarının 1986-cı il məzunları tələbə yoldaşları Bayram Əliyevə qardaşı

**ELBRUSUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fariz Osmanov və komitənin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı universitetin xidmət şöbəsinin sürücüsü Zaur Qarayevə həyat yoldaşı

**ZƏHRA XANIMIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov və komitənin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4909
SİFARİŞ 2273
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00